RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 49 (8928) CÜMƏ, 4 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qafqazın ən fəal siyasi və iqtisadi gücü

## İlham Əliyevin yürütdüyü tam müstəqil siyasət Azərbaycanı güvənli, etibarlı və istiqrarlı dövlətə çevirib

Tarixi reallıqlar sübut edir ki, keçən il müstəqilliyinin bərpasının 30 illiyini qeyd edən Azərbaycan bu qısa müddətdə həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş dövlətə çevrilib. Bunun yeganə səbəbi isə əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü siyasətdir. Ölkəyə rəhbərlik etdiyi 19 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, Azərbaycan mövcudluğu tarixində heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada iqtisadi sahədə ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Artıq dövlətimizin yürütdüyü siyasət hər kəsə bəllidir - tam müstəqil siyasət.

### Enerji təchizatçısı, transmilli layihələrin iştirakçısı

Dünyanın bütün ölkələrinin təsnifatını versək, onların heç də hamısının bu və ya digər məsələlərin həllində müstəqil olmadığını görə bilərik. Elə ölkələr var ki, üçüncü bir ölkənin və yaxud güc mərkəzinin təsiri altındadır və onların verdikləri tapşırıqları yerinə yetirirlər. Yəni güc amili əsas faktordur.

Müstəqil siyasət yürüdən, heç kimdən asılı olmayan Azərbaycan isə hədəflərini özü müəyyənləşdirir və onları reallaşdırmaq istiqamətində qətiyyətli addımlar atır. Azərbaycan inkişaf etmiş dövlətlərin sırasına çatmağı özünün strateji vəzifəsi kimi müəyyən edib.

Ardı 3-cü səh.

# İçərişəhər tarixi irsimizdir, onu göz bəbəyimiz kimi qorumalıyıq

## Prezident İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Bu gün siz "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız, üzərinizə düşən məsuliyyəti dərk edirsiniz və göstərilən etimadı öz işinizlə doğruldacaqsınız.

İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq. İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir. Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur.

Ardı 2-ci səh.

# Azərbaycan və Tacikistan arasında parlamentlərarası əməkdaşlıq uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməlini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməlinin səfərinin səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanın və Tacikistanın bir çox istiqamətlərdə sıx qarşılıqlı fəaliyyət həyata keçirdiyini vurğulayan dövlət başçısı özünün Tacikistan Prezidenti Emoməli Rəhmonla təmaslarının və qarşılıqlı dəstəyin önəmini qeyd etdi.

Dövlət başçısı ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirdi, iqtisadi, nəqliyyat və investisiya qoyuluşu sahələrində də yaxşı perspektivlərin mövcud olduğunu vurğuladı.

Ardı 2-ci səh.

# YAP-ın VII qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu

**Tahir BUDAQOV:**

- Tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda keçirilmiş YAP-ın VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoyub. Qurultayda qəbul edilən qərarlar partiyamızın inkişafı və müasir çağırışlara cavab verməsi - ictimai-siyasi öhdəlikləri layiqincə yerinə yetirməsi üçün olduqca əhəmiyyətlidir.

Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də yuxarıda bəhs olunan strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar, dayanıqlı, etibarlı və möhkəm zəmin yaradacaqdır.

Biz haqlı olaraq YAP-ın yaradılmasının 30-cu ildönümünü qürurla, iftixarla qarşılayır və qeyd edirik. Çünki Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP ötən 30 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmişdir. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi və Azərbaycana qalib dövlət imici qazandırması da bu reallığın təsdiqidir. YAP qalib xalqımızın Zəfər partiyasıdır.

Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxsaylı nailiyyətlərə imza atan Yeni Azərbaycan Partiyası yeni mərhələdə - bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcəkdir. Çünki YAP, Ümummilli Liderimizin dediyi kimi, dünənin, bu günün və sabahın partiyasıdır. Dünən Azərbaycan xalqının, dövlətinin ictimai-siyasi məsuliyyətini öz üzərinə götürən Ümummilli Liderin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən YAP sabah da taleyüklü məsələlərin həllində və tarixi məsuliyyət anlarında öz sözünü deyəcək - ümumxalq partiyası olduğunu hər zaman təsdiqləyəcək!

Bax: səh. 4

# Yoluxma azalsa da, təhlükə hələ sovuşmayıb



## Yeni reallıq Azərbaycanın pandemiyanın istənilən dalğası ilə mübarizəyə hazır olduğunu təsdiqləyir

ÜST-ün son məlumatına görə, dünyada 437 milyondan çox insan COVID-19-a yoluxub, xəstəlik nəticəsində 5 milyondan çox şəxs həyatını itirib. Virusa yoluxma hallarının 179 milyonu Avropa qitəsinin payına düşür.

Son 7 günün statistikasına əsasən isə dünyada 10 milyondan çox insan COVID-19-a yoluxub, onlardan 55 min nəfəri vəfat edib.

Hazırda "SARS-CoV-2"nin sonuncu variantı sayılan "Omikron" sürətlə yayılmaqda davam edir. Alimlərin fikrincə, pandemiyanın sona çatması üçün kollektiv immunitetin formalaşması vacibdir və bunun üçün dünya əhalisinin 60-70 faizinin peyvənd olunması zərurətdir.

Ardı 7-ci səh.

# Marionet ölkənin marionet prezidenti

## Ermənistanda ən aşağı reytinqli siyasətçi ölkənin "rəhbər"i seçildi

Dünən Ermənistan parlamenti ölkənin sayca 5-ci prezidentini seçdi.

Hakimiyyətdə yer alan və ölkəni daha çox qanqstersayağı idarə etməyə üstünlük verən Nikol Paşinyanın nəzərdə tutduğu şəxs - İrəvanın yüksək texnologiyalar sənayesi naziri, sabiq mer Vaaqn Xaçatryan parlament tərəfindən prezident seçildi.

Bu şəxsin baş nazir Nikol Paşinyanın marioneti olacağı qətiyyən şübhə doğurmur. Çünki asanlıqla idarə edəcəyi şəxsi baş nazir parlamentin əli ilə bu posta əyləşdirdi.

Xatırladaq ki, Ermənistan prezidenti parlament tərəfindən 7 il müddətinə seçilir. Namizədlər deputatların ümumi sayının ən azı dörddəbiri tərəfindən irəli sürülür. Deputatların ümumi səslərinin azı dörddəüçünü toplayan namizəd Ermənistan prezidenti seçilir.

Ardı 7-ci səh.

# Avrozonada inflyasiya maksimum həddə çatıb



## Beynəlxalq ekspertlər 2022-ci ildə bu durumun nəinki davam edəcəyini, hətta sürətlənəcəyini bəyan edirlər

Fevral ayında avro zonası ölkələrində istehlak qiymətləri 5,8 faiz artıb.

Bu, 1999-cu ildə vahid Avropa valyutasının tətbiq edilməsindən bəri ən yüksək göstəricidir.

2022-ci ilin fevralında illik inflyasiya templəri sürətlənməkdə davam edib. Nəticədə inflyasiya analitiklərin proqnozlarını üstələyib və avro tarixində maksimum göstəriciyə çatıb.

Avropa Statistika İdarəsinin (Eurostat) açıqladığı məlumata görə, ötən ay istehlak qiymətləri 5,1 faiz artıb. İnflyasiyanın sürətlənməsində əsas amil yanvar ayında 28,8 faiz artdıqdan sonra fevralda illik ifadədə 31,7 faiz artan enerji daşıyıcılarının qiymətləri olub.

Ardı 7-ci səh.

# İçərişəhər tarixi irsimizdir, onu göz bəbəyimiz kimi qorumalıyıq

## Prezident İlham Əliyevin çıxışı

Əvvəli 1-ci səh.

Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz.

İçərişəhər Bakı şəhərinin özəyidir. Bakı şəhərini İçərişəhərsiz təsəvvür etmək mümkün deyil. Ancaq inzibati bölgü nöqteyi-nəzərdən mənim sərəncamımla bir neçə il bundan əvvəl İçərişəhərdə xüsusi idarəetmə mexanizmi yaradılmışdır, idarə yaradılmışdır. İnzibati nöqteyi-nəzərdən İçərişəhər müstəqil inzibati vahiddir, ancaq Bakı şəhərinin bir hissəsidir. Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər. Bir daha demək istəyirəm ki, İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər, sadəcə olaraq, açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlər boyu yaşayıb. Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi. Bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün, əlbəttə ki, böyük işlər görülür və görüləcəkdir. Eyni zamanda, bir daha demək istəyirəm ki, İçərişəhər həm Bakı sakinləri, həm bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın var. Bütün bunları nəzərə alaraq işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, eyni zamanda, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə idarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər.

Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır. Həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır - Bakı Şəhər İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcək.

Ancaq yenə də deyirəm, son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşdı. Bu gün bir daha demək istəyirəm, Bakı unikal şəhərdir, dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hər kəs deyir, mənim aləmimdə Bakı dünyanın ən gözəl şəhəridir. Hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə. Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik - Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq.

Ona görə Bakının inkişafı və idarəetmə prinsipləri başqa şəhərlərdən fərqlənir. Qeyd etdiyim kimi, mənim sərəncamımla vaxtilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bulvar İdarəsi yaradılmışdır. Bulvar da Bakının bir hissəsidir, ancaq ayrıca bir inzibati vahididir. Nə üçün? Çünki bulvar da bizim milli sərvətimizdir və indi Azərbaycan vətəndaşları, xüsusilə gənclər yəqin ki, bunu xatırlamır və ümumiyyətlə, görməyiblər ki, 10-15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi - qaranlıq, səliqəsizlik və heç bir şəhərə şərəf gətirməyən mənzərə. Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman var. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni, Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır, - Bakı şəhəri, İçərişəhər və Bulvar, - üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr, təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan - ya yerli vətəndaş, ya qonaq o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni bir Bakı görür, müasir bir Bakı görür. Bax, bu amillər çox önəmlidir. Ona görə siz də təbii ki, öz fəaliyyətinizdə bu iki qurumla sıx əlaqədə olmalısınız, onlar da sizinlə. Çünki Bakı, onun bütün yerləri, hər bir guşəsi bizim üçün doğmadır, əzizdir. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar - istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin.

Bir daha demək istəyirəm ki, sizin üzərinizə böyük vəzifə düşür. Bir daha demək istəyirəm ki, İçərişəhər bizim milli sərvətimizdir, bu sərvəti biz qorumalıyıq və qoruyacağıq. Sizə işinizdə uğurlar arzulayıram.

**Şahin SEYİDZADƏ:** Cənab Prezident, etimad göstərdiyiniz üçün Sizə təşəkkür edirəm.

# Azərbaycan və Moldova prezidentləri telefonla danışıblar



Martın 3-də Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı regional məsələlər barədə fikir mübadiləsi aparılıb, həmçinin Azərbaycan ilə Moldova arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Ş.K.Seyidzadənin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Kamil oğlu Seyidzadə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2022-ci il*

# Azərbaycan və Tacikistan arasında parlamentlərarası əməkdaşlıq uğurla inkişaf edir

Əvvəli 1-ci səh.

Xoş sözlərə görə minnətdarlığını bildirən Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli, ilk növbədə, Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Rüstəm Emoməli parlamentlərimiz arasında əməkdaşlıq haqqında sazişin, həmçinin Bakı və Düşənbənin qardaşlaşması barədə sənədin imzalanacağını qeyd edərək, bunları dostluq əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi.

Prezident İlham Əliyev Tacikistanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Emoməli Rəhmona çatdırmağı xahiş etdi.

# Ə.Ə.Ələkbərovun "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əsgər Əyyub oğlu Ələkbərov "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2022-ci il*

# Azərbaycanda 7 mart iş günü ilə 5 mart istirahət gününün yerləri dəyişdirilib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" qərar imzalayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2022-ci il 7 mart iş günü ilə 5 mart istirahət gününün yerləri dəyişdirilib.

# "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2021-ci il sentyabrın 28-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2022-ci il*

# "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1372) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Zeynal Nağdəliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini".

2. "Anar Ələkbərov" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Natiq Əmirov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri".

3. "Emin Hüseynov -" sözlərindən sonra "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi," sözləri əlavə edilsin.

4. "Kamran Əliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri".

5. "Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri" sözləri "Rəşad Nəbiyev - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri ilə əvəz edilsin.

6. "Oqtay Şirəliyev" sözləri "Teymur Musayev" sözləri ilə əvəz edilsin.

7. "Anar Quliyev" sözlərindən əvvəl aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Anar Kərimov - Azərbaycan Respublikasının mədəniyyət naziri

Pərviz Şahbazov - Azərbaycan Respublikasının energetika naziri".

8. "Anar Kərimov - Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini" sözləri "Vüqar Süleymanov - Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri." sözləri ilə əvəz edilsin.

9. "Rəşad Nəbiyev - "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2022-ci il*

# Rumıniya KİV-i Prezident İlham Əliyevin bu ölkənin energetika naziri ilə görüşündən yazıb




Rumıniyanın aparıcı xəbər agentliyi "MediaFax" və digər nüfuzlu KİV-i Azərbaycan Prezidenti İlham Əliyevin və bu ölkənin energetika naziri Virgil-Daniel Popesku ilə görüşünü geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı yayılan materiallarda görüşdə Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb və bu baxımdan strateji tərəfdaşlığa dair imzalanmış birgə bəyannamənin önəmi qeyd olunub. Virgil-Daniel Popeskunun səfərinin ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə edilib.

Həmçinin diqqətə çatdırılıb ki, söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinə də toxunulub, bu münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb.

# "Azərbaycanın çox böyük potensialı və parlaq gələcəyi var"

## Yaponiyalı yutuber Kazuyasu İşida Ağdama səfəri barədə təəssüratlarını izləyiciləri ilə bölüşüb

Yaponiyanın "Cross Border Club 3.0" adlı yutub kanalının rəhbəri Kazuyasu İşida digər xarici ölkələrin jurnalistləri ilə birlikdə Qarabağa səfər edib. Yaponiyalı yutuber Ağdam şəhəri haqqında təəssüratlarını öz izləyiciləri ilə bölüşüb.

AZƏRTAC xəbər verir ki, Ağdamda gördüklərini Yaponiyanın atom bombası atılmış Hirosima şəhəri ilə müqayisə edən K.İşida erməni işğalından sonra şəhərdə bir dənə də olsun salamat tikilinin qalmadığını xüsusi qeyd edib: "Bu gün Bakıdan xeyli uzaq məsafədə olan Ağdam şəhərinə gəlmişik. Bu şəhər Birinci Qarabağ müharibəsində ən çox zərər görən şəhər kimi tanınır. Şəhər işğal edilməmişdən əvvəl burada təxminən 20 minə yaxın azərbaycanlı yaşayırmış. Müharibə vaxtı bu şəhəri kifayət qədər atəşə tutan ermənilər işğaldan sonra buranı tamamilə dağıdıblar".




Ağdamın kifayət qədər böyük ərazini əhatə etdiyini qeyd edən yutuber buranın turizm üçün əlverişli məkan olduğunu qeyd edib: "Buradan baxanda hündür Qafqaz dağlarını görmək mümkündür. Bakıdan uzaq olsa da, hava limanı inşa edildikdən və magistral yolların salınmasından sonra Ağdam şəhərinə turistlərin gəlməsi üçün əlverişli imkan yaranacaq".

K.İşida ermənilərin ərazidəki dini və tarixi abidələrə böyük zərər vurduğunu xüsusilə vurğulayıb: "Bu gördüyünüz yerli əhalinin istifadə etdiyi məsciddir. İndiki vəziyyətinə baxdıqda heç məscid olduğu bilinmir. Bu dərəcədə məhv edilib".

Səfər çərçivəsində Şuşada da olduğunu qeyd edən yaponiyalı yutuber Ağdamın həmin şəhərə nisbətən daha çox ziyan çəkdiyini bildirib: "Bura Şuşadan da çox pis vəziyyətə salınıb. Yerləyeksan edilib desək, daha doğru olar. Bütün şəhəri əhatə edən dağıntıların aradan qaldırılması üçün xeyli zaman lazımdır. Minaların da ən çox olduğu yer bura sayılır. Minaların təmizlənməsindən sonra torpaqda qalan boşluqlar aydın görünür".

Azərbaycan dövlətinin bu istiqamətdə böyük işlər gördüyünü diqqətə çatdıran K.İşida bərpa və quruculuq işlərinin aparılması üçün kifayət qədər maddi vəsait ayrıldığını qeyd edib. O, yenidənqurma işlərinin sürətlə aparıldığını vurğulayıb: "Azərbaycan hökumətinin bu ərazilərdə apardığı irimiqyaslı bərpa-quruculuq işləri gələcəyə böyük inamla baxmağa əsas verir. Biz Füzuli Beynəlxalq Hava Limanında olarkən buna bir daha əmin olduq. Mən deyərdim ki, qısa müddətdə inşa edilmiş bu obyekti Qarabağın dirçəliş rəmzi kimi də adlandırmaq olar. Şuşada görkəmli şəxsiyyətlərin ev-muzeyləri, tarixi abidələr, Cıdır düzü məndə böyük təəssürat yaratdı".

Azərbaycana, Qarabağa səfərinin onda fərqli hisslər oyatdığını bildirən yutuber həqiqətlərin yaponlara çatdırılması üçün çalışacağını da bildirib: "Azərbaycanın çox böyük potensialı və parlaq gələcəyi var. Azərbaycanda gördüklərim barədə rəhbərlik etdiyim yutub kanalında və digər yerli kütləvi-informasiya vasitələrində çıxış edərək bu ölkə barədə yeni verilişlər hazırlayacağam".

Qeyd edək ki, Kazuyasu İşidanın rəhbərlik etdiyi "Cross Border Club 3.0" kanalının 75 mindən çox abunəçisi, 500 minə yaxın izləyicisi var.

# Hərbi hissələrdə psixoloji işə dəstək tədbirləri davam etdirilir



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin psixoloqlarının, Respublika Narkoloji Mərkəzinin nümayəndələrinin iştirakı ilə hərbi hissələrdə tədbirlər keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər çərçivəsində gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlığının qorunması məqsədilə kollektiv, qrup və fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilib, söhbətlər aparılıb.

Bundan əlavə, son illərdə ölkəmizdə narkomaniyaya qarşı dövlət səviyyəsində keçirilən tədbirlərdən, cəmiyyət arasında gənclərin bu zərərli vərdişlərə meyillilik hallarının qarşısının alınması istiqamətində görülən işlərdən danışılıb.

Respublika Narkoloji Mərkəzinin həkim-mütəxəssisləri psixoaktiv maddələrin istifadəsinin insan orqanizminə ziyanı və sonrakı fəsadları barədə maarifləndirici söhbətlər ediblər.

Sonda hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb və onlara lazımi tövsiyələr verilib.

# Minaatan bölmələr ilə təlim atış çalışmaları yerinə yetirilib

Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının minaatan bölmələri ilə təlim atış çalışmaları yerinə yetirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələr atışdan əvvəl ərazidə açılma, atəş mövqelərinin tutulması və minaatanların döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri yerinə yetiriblər.

Minaatanlardan yarımdüzünə tuşlama ilə tək hədəfə yerindən atış üzrə təlim atış çalışmaları müvəffəqiyyətlə icra olunub.

Bölmələrin təlim prosesi Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınaraq uğurla həyata keçirilir.

# Azərbaycan və Tacikistan parlamentləri arasında əməkdaşlıq haqqında saziş imzalanıb





Martın 3-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən Sahibə Qafarova səfərin iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. Milli Məclisin Sədri iki ölkənin diplomatik əlaqələrinin qurulmasının 30 illik yubileyinin tamam olduğunu qeyd edərək siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafından danışıb.

Sahibə Qafarova ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb, imzalanan sənədlərin əhatə dairəsinin genişləndirilməsi üçün daha böyük potensialın olduğunu deyib.

Milli Məclisin Sədri Azərbaycanla Tacikistan parlamentləri arasında mövcud əməkdaşlıq əlaqələri barədə fikirlərini bölüşüb, qarşılıqlı parlamentlərarası dostluq qruplarının fəaliyyətini xüsusi qeyd edib.

Sahibə Qafarova bu gün Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Respublikası Ali Məclisinin Milli Məclisi arasında imzalanacaq əməkdaşlıq haqqında Sazişin qarşılıqlı münasibətlərimizin inkişafına xidmət edəcəyinə əminliyini bildirib.

Görüşdə parlamentin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm zəfər barədə geniş məlumat verib. Diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun şücaəti sayəsində Ermənistanın 30 illik işğalına son qoyaraq 20 faiz ərazisini işğaldan azad edib, bununla da ərazi bütövlüyünü və BMT-nin 4 qətnaməsinin icrasını özü təmin edib. O qeyd edib ki, Ermənistan 30 il ərzində işğal altında saxladığı ərazilərimizdə şəhərləri, kəndləri, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri dağıdıb, talan edib. Milli Məclisin Sədri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işləri barədə məlumat verərək nəzərə çatdırıb ki, münaqişə artıq keçmişdə qalıb. İndi ölkəmiz bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin olunmasında maraqlıdır və bu istiqamətdə lazımi addımlar atır. Qısa müddət ərzində çox böyükhəcmli işlər görülüb, ərazilərin minalardan təmizlənməsi işinə başlanıb, yeni nəqliyyat infrastrukturu yaradılıb. Azərbaycan həmin ərazilərdən məcburi köçkün olmuş vətəndaşlarının tezliklə öz evlərinə qayıtmasına çalışır. İnanırıq ki, Ermənistan reallığı düzgün qiymətləndirəcək və tezliklə iki ölkə arasında sülh sazişi imzalanacaqdır.

Milli Məclisin Sədri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələrin, Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının regionun daha da inkişafına xidmət edəcəyinə əminliyini ifadə edib.

Görüşdə Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli ölkəmizə səfərə dəvətə görə Sahibə Qafarovaya təşəkkürünü bildirib. O, spiker vəzifəsində Azərbaycana ilk rəsmi səfərini etdiyini diqqətə çatdıraraq Azərbaycanın zəngin parlamentarizm tarixi olduğunu qeyd edib. Diqqətə çatdırıb ki, Tacikistan Azərbaycanla tarixi və mədəni ortaqlığa əsaslanan ənənəvi dostluq əlaqələrini yüksək qiymətləndirir. Azərbaycan Tacikistanın xarici siyasətində mühüm yer tutur. Əlaqələrimiz həm ikitərəfli, həm də çoxtərəfli əsasda, həmçinin beynəlxalq təşkilatlarda əməkdaşlıq çərçivəsində uğurla inkişaf edir.

Söhbət zamanı Rüstəm Emoməli bu gün iki ölkənin parlamentləri arasında imzalanacaq əməkdaşlıq haqqında sazişin iki dost ölkənin parlamentlərarası əlaqələrinin daha da inkişafına kömək edəcəyinə əminliyini bildirib.

Sonra görüşdə ölkələr arasında iqtisadi-ticari, nəqliyyat, təhsil və mədəniyyət sahələrində əlaqələrə dair məsələlər müzakirə olunub.

Görüşdən sonra Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Respublikası Ali Məclisinin Milli Məclisi arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

# Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Azərbaycana səfərə gəlib




Martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli Azərbaycana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Tacikistanın Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Milli Məclis Sədrinin müavini Adil Əliyev və digər rəsmi şəxslər qarşılayıblar.

# Tacikistanın Ali Məclisi Milli Məclisinin Sədri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməlinin rəhbərlik etdiyi nümayəndə heyəti martın 3-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb, əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər qoyulub.

Nümayəndə heyətinin üzvləri, həmçinin Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər güllər düzüblər. Nümayəndə heyəti adından "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Ailə qanunvericiliyinin təkmilləşdirilməsi diqqət mərkəzindədir

Martın 3-də Milli Məclisdə parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə "Ailə qanunvericiliyi: ənənəvilik və müasirlik" mövzusunda dinləmə keçirilib.

Tədbiri açan Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın ailə dəyərlərinə, milli-mənəvi dəyərlərə böyük önəm verdiklərini qeyd edib. O bu gün dövlətin güclü dəstəyi sayəsində ailələrimizin inkişafı üçün real imkanların yaradıldığını vurğulayıb.

Ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycanda yaradılan qanunvericilik bazasından danışan komitə sədri zamanın tələbləri və çağırışları fonunda bu sahədə qanunvericiliyin nəzərdən keçirilməsi ehtiyacının yaranmasından bəhs edib. Cəmiyyətdə artan boşanma, ailədaxili zorakılıq hallarının statistik təhlilini aparan komitə sədri ailə üzvləri arasında ünsiyyət çətinliyinin, sosial-psixoloji gərginliyin, müasir amillərin mənfi təsirlərinin ailənin təməlinin zəiflətməsinə diqqət çəkib.

Milli-mənəvi dəyərlərin təbliğinin və bu sahədə maarifləndirmə işlərinin artırılmasının önəmini vurğulayan Hicran Hüseynova bildirib ki, bu dəyərləri qoruyub saxlamaq çox vacibdir.

Tədbirdə Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva çıxış edib. Jalə Əliyeva ailə institutunun təməllərinə zərbə vuran faktorlara diqqəti cəlb edərək onların qarşısının alınması yolları ilə bağlı fikirlərini açıqlayıb. O, evlənmə yaşında olan gənclər üçün xüsusi kursların təşkilini məqsədəuyğun hesab etdiyini deyib, həmçinin məişət zorakılığı cinayətləri ilə bağlı fikirlərini bölüşüb. Komitə sədrinin müavini yalnız hüquq-mühafizə orqanlarının deyil, bütün cəmiyyətin bu amillərlə birgə mübarizə aparmasının önəmini vurğulayıb.

Dinləmədə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvləri Tamam Cəfərova, Sədaqət Vəliyeva, Könül Nurullayeva, Nigar Arpadarai çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər. Deputatlar ailədaxili münaqişələrin, məişət zorakılığının, erkən nikah hallarının qarşısının alınması yolları barədə danışıblar, bu kimi problemlərin həlli zamanı hüquqi müstəvidə rastlanan çatışmazlıqlara diqqət çəkiblər.

Çıxış edənlər ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova, Təhsil Problemləri İnstitutunun direktor müavini Ənvər Abbasov, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla iş şöbəsinin rəisi Hikmət Quliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Babək Hüseynov, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elşən Hüseynov, Səhiyyə Nazirliyinin əməkdaşı Aynurə Zeynalova, Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin əməkdaşı Aygün Şahbanova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Nahid Məmmədov, Ombudsman Aparatı Uşaq hüquqlarının müdafiəsi sektorunun müdiri Nigar Ağayeva, Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov, "Ümidli gələcək" İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumova mövzu ilə bağlı çıxış ediblər. Çıxış edənlər ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində aparılan işlərdən danışıblar, bu sahənin aktual məsələləri, onların həlli ilə bağlı fikirlərini açıqlayıblar.

Müzakirələrə yekun vuran komitə sədri Hicran Hüseynova aparılan fikir mübadiləsinin faydalı olduğunu bildirib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

*Əvvəli 1-ci səh.*

# Qafqazın ən fəal siyasi və iqtisadi gücü

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni reallıqlar Azərbaycanın həm də beynəlxalq siyasi, iqtisadi-ticari münasibətlərinin daha da şaxələnməsi üçün real zəmin yaradıb.

Ümumiyyətlə, Azərbaycan qonşu olan və olmayan digər dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı əlaqələrin genişləndirilməsinə daim böyük önəm verib. İlham Əliyev tərəfindən milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun məqsədyönlü şəkildə həyata keçirilməsi bu əlaqələrin düzgün qurulmasına imkan yaradıb.

Hazırda Azərbaycan regionda əsas enerji təchizatçısıdır. Asiya və Avropa arasında körpü rolunu oynayan Azərbaycan bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində iş aparır. Bununla da Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfə verir.

Ölkəmizin daha da qüdrətlənməsi, beynəlxalq nüfuzunun artması, dünyanın yeni çağırışlarına cavab verən mütərəqqi islahatların həyata keçirilməsi yolunda qətiyyətli addımlar atan İlham Əliyevin yürütdüyü uğurlu siyasət beynəlxalq aləmdə dəstək və rəğbət qazanır. Çünki Azərbaycan Prezidenti eyni zamanda qlobal səviyyədə də mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə əməli addımlar atır. Bu, beynəlxalq təşkilatlar tərəfindən təqdir edilir. İlham Əliyev beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verməklə Azərbaycanın dünya birliyində nüfuzu, dövlətlərarası münasibətlərdə çəkisi artıb. Prezidentin həyata keçirdiyi xarici siyasətin taktiki və strateji özəllikləri Azərbaycana böyük uğurlar qazandırıb. Bütün bunlar isə göstərir ki, Azərbaycan regionda ən mükəmməl xarici siyasət kursuna malik müstəqil dövlətdir. İlham Əliyevin xarici siyasət təşəbbüsləri regional və qlobal reallıqları zərgər dəqiqliyi ilə nəzərə alır. Bu fikrin doğruluğunu İkinci Qarabağ müharibəsinin nəticələri də təsdiqlədi.

## Azərbaycanın inkişaf yolu başqa ölkələr üçün işıq yoludur

Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən İlham Əliyevin yürütdüyü siyasət dövlət başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir.

İlham Əliyev prezidentlik fəaliyyətinin qürurverici hesabatını söyləyərkən bir məqamı çox doğru olaraq vurğulayır ki, Azərbaycanın inkişaf yolu başqa ölkələr üçün işıq yoludur. Bunu şərtləndirən digər amil isə iqtisadi müstəqillikdir. Son 19 ildə ölkəmizdəki iqtisadi müstəqilliyin yaratdığı reallıq tam müstəqil siyasətin yürüdülməsini şərtləndirib. Əgər bu, baş verməsəydi, indi Azərbaycan da bəzi ölkələr kimi forposta çevrilmişdi. Çünki iqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmirlər, yaxud da ki, aparmaqda çətinlik çəkirlər.

İlham Əliyevin düşünülmüş inkişaf konsepsiyası ilə Azərbaycan tam müstəqil siyasət aparır, bütün məsələlərlə bağlı öz mövqeyini çəkinmədən ifadə edir. Bu da Azərbaycanın siyasi və iqtisasdi çəkisini getdikcə artırır. Cənubi Qafqazda həm siyasi, həm iqtisadi güc mərkəzi, həm də güclü orduya sahib qüdrətli ölkə kimi Azərbaycan dünyada etibarlı tərəfdaş kimi əksər dövlətlərlə hərtərəfli əməkdaşlıq edir.

Bu gün Azərbaycan həm də dünyanın əsas enerji ixracatçılarından biridir. Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilən ölkəmiz həm də Şimaldan Cənuba və Şərqdən Qərbə yüklərin daşınmasında mühüm nəqliyyat qovşağı kimi tanınır.

Tezliklə açılıb istifadəyə veriləcək Zəngəzur dəhlizi isə Azərabaycan iqtisadiyyatına əlavə dividentlər gətirəcək. Bu dəhlizlə türk dünyasını birləşdirəcək ölkəmiz Asiyadan Avropaya daşınan yüklərin ən səmərəli, etibarlı tranzit mərkəzinə çevriləcək. Artıq dəhlizin hava məkanından istifadə edilir. İndi əsas diqqət quru - yəni avtomobil və dəmir yollarının çəkilməsinə yönəlib. Azərbaycan bu prosesdə üzərinə düşən öhdəliyi sürətlə həyata keçirir. Dünən Ermənistanın baş naziri Nikol Paşinyan Arazdəyən-Sədərək-Culfa-Ordubad-Meğri-Horadiz dəmir yolunun (Zəngəzur dəhlizi) Ermənistan hissəsində çöl işlərinə başlandığını açıqlayıb. O, bu işlərə paralel olaraq 2021-ci ildə Soçi və Brüsseldə keçirilən üçtərəfli görüşlərdə əldə edilmiş razılaşmaların de-yure sabitləşəcəyinə ümid etdiyini bildirib. N.Paşinyan onu da bildirib ki, Ermənistan avtomobil yolları üçün mümkün marşrutlar, o cümlədən yeni yolların tikintisi üzərində işləyir. Bu gün Cənubi Qafqaz Dəmir Yolunun mütəxəssisləri və nümayəndələrindən ibarət işçi qrupu dəmir yolunun 43 kilometrlik hissəsində qiymətləndirmə işləri aparmaq üçün Meğriyə yola düşəcək.

Göründüyü kimi, Azərbaycan regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də ölkəmiz hazırda regional güc mərkəzi kimi sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

1992
2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30

# YAP-ın VII qurultayı Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu

## Müsahibimiz Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir BUDAQOVdur

*- Azərbaycan dünyada islahatçı ölkə kimi tanınır. Xüsusilə də, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər bütün sahələri əhatə edən genişmiqyaslı islahatlara start verilib. Yeni Azərbaycan Partiyası da bu prosesdən kənarda qalmayıb. Bu baxımdan, partiyanın bir il əvvəl - 5 mart 2021-ci il tarixdə keçirilmiş VII qurultayında qəbul edilmiş qərarlar və ondan sonra həyata keçirilən tədbirlər diqqəti cəlb edir. Bu barədə nə deyə bilərsiniz?*

- Tamamilə haqlısınız, Azərbaycan dünyanın mötəbər araşdırma mərkəzlərinin tədqiqatlarında və nüfuzlu reytinq təşkilatlarının hesabatlarında islahatçı ölkə kimi dəyərləndirilir. Təbii ki, ayrı-ayrı sahələrin inkişafını və bütövlükdə milli tərəqqini təmin edən islahatlar kursu dövlətimizin gücünün artmasını, yeniləşməni və müasirləşməni təmin edən çox mühüm amillərdən biridir. Bu strateji kurs müasir çağırışlara, milli maraqlara və ictimai-siyasi münasibətlərin mahiyyətinə, xarakterinə tam adekvatdır. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar kompleks xarakter daşıyır, ardıcıl və məqsədyönlüdür. Dövlət başçısının islahatlar kursu Azərbaycanın bugünkü inkişafını təmin, gələcək strateji hədəflərinin gerçəkləşməsini isə mümkün edən faktorlardandır.

Ümumiyyətlə, yeni nəsil islahatlar kursunun və milli inkişafın Azərbaycan modelinin müəllifi olan Prezident İlham Əliyev dünyada innovativ baxışlara, kreativ siyasi düşüncəyə malik, modern idarəetmə sistemi yaradan lider kimi tanınır. Dövlət başçısının siyasətinin proqressiv nəticələri özünü bütün sahələrin inkişafına nail olunmasında göstərir. Sistemli və çoxşaxəli səciyyə daşıyan institusional, kadr və struktur islahatları idarəetmənin səmərəliliyi və çevikliyinin artmasını təmin etməklə yanaşı, vətəndaş məmnunluğuna, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsinə xidmət göstərir. Bu, XXI əsrin üçüncü onilliyinə Azərbaycanın müasir tendensiyalara və siyasi trendlərə cavab verən suveren ölkə kimi irəliləməsini - milli hədəfləri reallaşdırmasını təmin edir.

Razılaşarsınız ki, çoxşaxəli reformalardan bəhs edərkən siyasi islahatların əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. İslahatlar nəticəsində yeni siyasi konfiqurasiyanın formalaşması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, yeni siyasi partiyaların qeydiyyatdan keçməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların atılması həm Azərbaycanın mühüm prioritetləri reallaşdırmasına, həm də milli həmrəyliyin gücləndirilməsinə təkan verib.

Xüsusi vurğulamaq istəyirəm ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Yeni dövrün reallıqlarına uyğun olaraq siyasi inkişafa xidmət edən islahatların aparılması, sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, milli birliyin, Azərbaycanın beynəlxalq arenada və qlobal informasiya müstəvisində mövqeyinin daha da gücləndirilməsi, Böyük Qayıdışın - layiqli və dayanıqlı məskunlaşmanın həyata keçirilməsi, tarixi Qələbənin nəticələrinin möhkəmləndirilməsi və digər milli məqsədlər strateji prioritetlər kimi müəyyənləşdirilib. Təbii ki, hakim və alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının da bu istiqamətdə üzərinə mühüm vəzifələr və ictimai-siyasi məsuliyyət düşür. Qeyd etdiyiniz kimi, bir il əvvəl - 5 mart 2021-ci il tarixdə islahatlar kursunun tərkib hissəsi kimi və yeni dövrdə milli vəzifələrin reallaşdırılması zərurəti ilə əlaqədar partiyamızın VII qurultayı keçirilib.

Ümumiyyətlə, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda keçirilmiş YAP-ın VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoyub. Qurultayda qəbul edilən qərarlar partiyamızın inkişafı və müasir çağırışlara cavab verməsi - ictimai-siyasi öhdəlikləri layiqincə yerinə yetirməsi üçün olduqca əhəmiyyətlidir.

İlk növbədə qeyd edim ki, partiyanın yeni Nizamnaməsinin təsdiq edilməsi fəaliyyətin yeni yol xəritəsinin müxtəlif istiqamətlərinin müəyyənləşdirilməsi baxımından önəmlidir. Bilirsiniz ki, partiyanın Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçmişdi. Bu müddət ərəfəsində ölkədə və beynəlxalq aləmdə mühüm dəyişikliklər baş verib, o cümlədən Yeni Azərbaycan Partiyası əhəmiyyətli uğurlar qazanıb, yeni çağırışlar və vəzifələr meydana çıxıb. Ona görə də yeni Nizamnamənin qəbulu, partiya fəaliyyətinin tənzimlənməsində yeni mexanizmlərin müəyyənləşdirilməsi vacib idi və VII qurultayda bu istiqamətdə önəmli qərar verildi.

Bunlarla yanaşı, YAP-ın İdarə Heyətinin, Təftiş Komissiyasının, Gənclər Birliyinin yenidən formalaşdırılması, Veteranlar Şurasının təsis edilməsi də partiya idarəetməsində yeni mərhələnin başlanmasıdır. Digər tərəfdən, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edilməsi partiyamızın yüksək nüfuzunun, inam və etimad ünvanı olmasının daha bir nümunəsi - əyani ifadəsidir. Bu fakt həm də siyasi birlik və milli həmrəylik örnəyi, yeni siyasi mədəniyyət nümunəsi kimi diqqətəlayiqdir.



Bir məqama da toxunmaq istəyirəm. Bilirsiniz ki, VII qurultaydan sonra Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilmişdir. Sirr deyil ki, Mehriban xanım Əliyevanın milli inkişafa xidmət edən çoxşaxəli fəaliyyətinin mühüm tərəflərindən birini Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər təşkil edir. Bu, dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Reallıqlar deməyə əsas verir ki, Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini kimi fəaliyyəti bundan sonra da qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan YAP-ın yeni nailiyyətlər əldə edərək öz nüfuzunu daha da artırması, Azərbaycanın sürətli və hərtərəfli inkişafına davamlı töhfə verməsi baxımından əlamətdar olacaq.

Bütövlükdə isə, qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də yuxarıda bəhs olunan strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar, dayanıqlı, etibarlı və möhkəm zəmin yaradacaqdır.

*- Bəs VİI qurultaydan keçən müddət ərzində hansı təşkilati işlər görülüb?*

- YAP-ın VII qurultayında müəyyən olunmuş əsas vəzifələrdən biri də partiya strukturunun yenilənməsi və fəaliyyətin səmərəliliyinin artırılması üçün təşkilati işlərin həyata keçirilməsi oldu. Partiyamızda təşkilatlanma prosesi müxtəlif istiqamətlər üzrə aparılır. İlk növbədə qarşıda duran vəzifələrə uyğun olaraq YAP-ın fəaliyyətinin institusional əsaslarının gücləndirilməsi, normativ hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində işlər görülür. Yeni Azərbaycan Partiyasında uçot sisteminin təkmilləşdirilməsi üçün müvafiq addımlar atılıb və bu istiqamətdə iş davam etdirilir. Partiyada bütün üzvlərin fərdi uçot sisteminin müasir standartlara, informasiya-kommunikasiya texnologiyalarının bugünkü inkişaf mərhələsinə uyğun qurulmasına nail olunacaq.

Bununla yanaşı, VII qurultaydan ötən zaman müddətində YAP İdarə Heyətinin bir sıra iclasları keçirilib və təşkilatlanma, kadr və struktur dəyişiklikləri baxımından mühüm qərarlar qəbul olunub.

2021-ci il sentyabr ayının 10-da keçirilmiş YAP İdarə Heyətinin iclasında partiyanın Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatının və yerli təşkilatlarının əsasnamələrinin təsdiq edilməsi haqqında məsələyə baxılıb, hər bir əsasnamə ayrı-ayrılıqda müzakirəyə çıxarılaraq təsdiq olunub.

Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə əsasən partiyanın yerli təşkilatları yeni prinsiplər əsasında formalaşdırılmalıdır. Yeni Nizamnaməyə əsasən partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz. Bütün bu tələblərdən irəli gələrək YAP-ın yerli təşkilat aparatlarının yenidən formalaşdırılmasına ehtiyac yaranmışdı. Ona görə də iclasda bu məsələyə baxılıb və Bakı şəhərinin rayonları üzrə Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrləri təyin olunub.

Yeni Azərbaycan Partiyasının təsis etdiyi "Yeni Azərbaycan" qəzetinə yeni baş redaktorun təyin edilməsi məsələsi də müzakirə olunub, bu barədə qərar verilib. İclasda, həmçinin Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bir sıra məsələlərə də baxılıb.

Ötən dövr ərzində respublikanın digər şəhər və rayonları üzrə yerli təşkilatların sədrliyinə namizədlərin müəyyənləşdirilməsi ilə bağlı geniş təhlillər, müzakirələr aparılıb və yekun olaraq təklif olunan namizədlərin siyahısı hazırlanaraq İdarə Heyətinin üzvlərinə təqdim olunub. Yanvarın 28-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclasında yerli təşkilatların sədrlərinin vəzifəyə təyin edilməsi məsələsinə baxılıb və müvafiq qərar qəbul olunub. Bu qərarla yerli təşkilatlara rəhbər təyin edilənlərin üçdəikisi yeni şəxslərdir, bununla da onlar arasında orta yaş həddi təxminən 10 il azalmışdır. Artıq cari ilin fevral ayının 1-dən YAP-ın yerli təşkilatlarının sədrləri rəsmi qaydada fəaliyyətə başlayıblar. Hər bir şəhər və rayonda təşkilatlanma işinin daha çevik və müasir tələblərə, partiyanın Sədrinin qarşıya qoyduğu vəzifələrə uyğun qurulması üçün müvafiq tədbirlər görülür.

Bununla yanaşı, İdarə Heyətinin 28 yanvar tarixdə keçirilmiş iclasının müzakirəsinə 2 məsələ - Yeni Azərbaycan Partiyasının Proqramının təsdiq edilməsi və Yeni Azərbaycan Partiyasında üzvlük haqlarının məbləği və ödənilməsi qaydasının təsdiq edilməsi məsələləri çıxarılıb, hər iki sənəd müzakirələrdən sonra yekdilliklə təsdiq edilib.

YAP-ın VII qurultayında partiyamızın Sədri cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının yeni proqramının hazırlanması barədə tapşırıq və tövsiyələrini vermişdi. Bu tövsiyələrdən irəli gələrək yaradılmış işçi qrupu tərəfindən proqram üzərində işlərə başlanılmışdı. Ötən müddət ərzində sənədin layihəsi işçi qaydada dəfələrlə geniş tərkibdə müzakirə olunmuş, partiyamızın Sədri cənab İlham Əliyevin tövsiyələri əsasında təkmilləşdirilmişdi. Qeyd etmək istəyirəm ki, 1992-ci ildə təsis konfransında qəbul olunmuş və 1999-cu ildə keçirilmiş I qurultayda yenilənmiş, partiyamızın yaradıcısı Heydər Əliyevin müəllifi olduğu proqramda ideoloji prinsiplər, o cümlədən sosial-iqtisadi tərəqqi, əhalinin rifah halının yüksəldilməsi, sosial ədalətin bərqərar olunması, vətəndaş həmrəyliyi, Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi əsas hədəflər sırasında olub. Ötən illər ərzində qarşıya qoyulmuş bu vəzifələr yüksək səviyyədə icra edilib. Qürur hissi ilə vurğulamaq lazımdır ki, partiyamızın proqramı Azərbaycan xalqını və dövlətini qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə çatdırıb. Yeni proqram isə, əsasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi təməl prinsipləri dayanmaqla, Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyət istiqamətlərini müəyyən edən sənəddir. 5 fəsildən ibarət olan proqramda regionda yeni reallıqlar yaradan Azərbaycanın qarşısında dayanan yeni hədəflər əksini tapıb.

Qeyd edilənlərdən əlavə, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin digər iclaslarında həm partiyadaxili, həm də YAP-ın ictimai-siyasi proseslərdə iştirakı, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və icrası ilə əlaqədar müxtəlif məsələlərə dair müzakirələr aparılıb, adekvat qərarlar qəbul edilib.

Təbii ki, görülən işlər mütəmadi olaraq təhlil edilir, müvafiq nəticələr çıxarılır və müəyyən olunmuş vəzifələrə və perspektiv hədəflərə dair müzakirələr aparılır, fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Yeri gəlmişkən, qeyd edim ki, cari il fevralın 19-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə keçirilmiş müşavirədə partiyada aparılmış islahatlardan sonra qarşıda duran strateji vəzifələr geniş müzakirə olunub.

Sadalananlardan əlavə, Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə tədbirlərin keçirilməsi də milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, o cümlədən dövlətin strateji maraqlarının müdafiəsi naminə ictimai rəyin formalaşması baxımından da önəmlidir. Keçirdiyimiz tədbirlər həm gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, həm Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, həm partiyamızın beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, həm də digər bir sıra istiqamətlərdə mühümdür. Nəzərə çatdırım ki, "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi", "Qələbənin ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri", "Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə", "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah", "Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu", "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar", "Azərbaycan - Türkiyə, bir millət, iki dövlət: Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri", "Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi", "Nəsillərə nümunə ömür yolu", "Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir" və digər bir sıra mövzularda tədbirlər keçirilib, faydalı müzakirələr və fikir mübadilələri aparılıb. "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda keçirdiyimiz tədbirdə "Böyük yolun Müzəffər davamçısı" kitabının da təqdimatı olub. Vurğulayım ki, YAP-ın dəstəyi ilə hazırlanmış nəşr Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunub. Kitab ayrı-ayrı istiqamətlər üzrə 60 bölmədən, yəni 60 ayrıca mövzudan ibarətdir. Bununla yanaşı, dünyanın nüfuzlu şəxsiyyətlərinin dövlət və hökumət başçılarının, tanınmış ictimai, siyasi və mədəniyyət xadimlərinin Prezident İlham Əliyev haqqında fikirlərinə yer verilib, 60 sitat diqqətə çatdırılıb. Eyni zamanda, 2003-cü ildən bəri həyata keçirilən siyasətin nəticələrini və Azərbaycanın qazandığı sosial-iqtisadi uğurları əks etdirən 60 statistik göstəriciyə nəzər salınıb. Həmçinin dövlət başçısının müxtəlif məsələlərlə əlaqədar fikirləri də kitabda öz əksini tapıb.

Bu gün Yeni Azərbaycan Partiyası həm iqtidar partiyası kimi, həm də ölkənin hər bir sahəsində təmsil olunan partiya kimi iqtidar-müxalifət dialoquna öz töhfəsini verməkdədir. YAP əməkdaşlığa açıq və yerlərdə siyasi dialoq ilə bağlı olan prosesləri stimullaşdıran partiyadır. 2021-ci ilin 21 oktyabr tarixində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında parlamentdə təmsil olunan müxalifət partiyaların sədrləri ilə keçirilmiş görüş bu istiqamətdə görülən işlərə bir nümunədir. Yerlərdə müxalifət partiyalarının yerli təşkilatları ilə sağlam münasibətlərin qurulması YAP-ın yerli təşkilatlarının fəaliyyət istiqamətlərindən biridir.

Təbii ki, siyasi-ideoloji və təşkilati məsələlərlə əlaqədar işlərimiz davamlı və planlı xarakter daşıyır.

*- Vətən müharibəsindən sonra meydana çıxan çağırışlardan bəhs etdiniz. Bilirik ki, Azərbaycan 44 günlük müharibədə qələbə qazanmaqla yeni reallıqlar yaradıb. Postmüharibə dövründə qarşıda duran mühüm vəzifələrdən biri də hərbi zəfəri diplomatik müstəvidə möhkəmləndirməkdir. Bunun üçün isə xarici siyasətin uğurla davam etdirilməsi müstəsna əhəmiyyətə malikdir. YAP bu prosesə hansı töhfəni verir, partiyanın beynəlxalq əlaqələri necə inkişaf edir?*

- Doğrudur, Vətən müharibəsində qazanılmış möhtəşəm qələbənin strateji prosesə çevrilməsi, diplomatik müstəvidə möhkəmləndirilməsi istiqamətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mühüm addımlar atılır. Yeni Azərbaycan Partiyası da bu istiqamətdə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Ümumiyyətlə, partiyamızın səmərəli xarici əlaqələri və çoxşaxəli beynəlxalq əməkdaşlığı Azərbaycanın dövlətçilik maraqlarının qorunması üçün mühüm vasitədir. Sirr deyil ki, Yeni Azərbaycan Partiyasının çoxşaxəli fəaliyyəti ölkədaxili ictimai-siyasi münasibətlərdə fəal iştirakla məhdudlaşmır, eyni zamanda, beynəlxalq məzmun, xarakter və əhəmiyyət daşıyır. YAP ölkənin inzibati-coğrafi sərhədlərindən - respublikamızın hüdudlarından kənarda səmərəli əlaqələr formalaşdırmaqla, davam və inkişaf etdirməklə öz missiyasını yerinə yetirir. Şübhəsiz ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyalarından olan YAP-ın beynəlxalq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi, keyfiyyətcə zənginləşməsi yeni reallıqların təbliği, ölkəmizə qarşı yönəlmiş dezinformasiya və yalanların ifşası, informasiya müharibəsinə dəstək baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlər mühüm yer tutur. Bu münasibətlər çərçivəsində partiyalar arasında intensiv təmaslar davam etdirilir, səmərəli, faydalı müzakirələr, fikir və təcrübə mübadilələri aparılır.

Bu baxımdan, Azərbaycan-Türkiyə mənəvi-siyasi birliyinin və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni geostrateji reallıqların fonunda YAP-AK Parti əlaqələrinin də keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. İki hakim siyasi partiya dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələri daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə müvafiq siyasi, hüquqi addımlar atılır. Ötən ilin iyun ayında mənim rəhbərliyimlə Türkiyədə səfərdə olan YAP nümayəndə heyəti AK Partinin yüksəksəviyyəli rəsmiləri ilə görüşlər keçirdi, eyni zamanda, tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolu imzalandı. Səfər zamanı nümayəndə heyətimiz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edildi. Bu səfər çox səmərəli oldu və bizim qarşılıqlı münasibətlərimiz, gələcək əməkdaşlığımız üçün güclü hüquqi, institusional baza formalaşdırdı, siyasi əlaqələrin perspektiv inkişafı üçün əlverişli zəmin yaratdı. İyul ayında isə AK Parti sədrinin birinci müavini Numan Kurtulmuşun başçılığı ilə geniş nümayəndə heyəti ölkəmizə səfər etdi. Nümayəndə heyəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olundu. Bundan sonra bizim birgə fəaliyyətimizin dəqiq konturları müəyyən edildi.

Bunlarla yanaşı, hər iki partiyanın birgə təşkilatçılığı ilə tədbirlərin keçirilməsi Azərbaycan ilə Türkiyənin milli maraqlarına dair məsələlərdə faydalı və əhəmiyyətli müzakirələrin aparılması, təmasların sıxlaşdırılması və münasibətlərin inkişafı baxımından çox önəmlidir. Partiyalarımızın əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri", "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi", Gəncədə partiyalarımız arasında ikitərəfli Əməkdaşlıq Protokoluna uyğun olaraq "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzularında konfransların keçirilməsi faktını bu baxımdan ayrıca diqqətə çatdırmaq istəyirəm. Digər tərəfdən, 2021-ci ilin dekabrında İstanbulda "Daha yaxşı dünya naminə çağırışlar" mövzusunda keçirilən XII Boğaziçi Sammitində rəhbərliyimlə partiyamızın nümayəndə heyəti iştirak etdi. Toplantıda Azərbaycanla yanaşı, Pakistan, Meksika, İngiltərə, Belçika, Danimarka da daxil olmaqla, dünyanın 49 ölkəsindən təmsilçilər iştirak edirdilər. Tədbir çərçivəsində "Türkiyə-Azərbaycan İqtisadi Əməkdaşlıqları - iş dünyasının perspektivləri" mövzusunda panel iclasında çıxış edərək Azərbaycan təcrübəsi ilə əlaqədar bir sıra zəruri - vacib məqamları diqqətə çatdırdım. Dekabrın 7-də isə AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuş ilə görüşümüz oldu. Görüş zamanı iki qardaş ölkənin hakim partiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində işlərin davamlılığı, növbəti perspektiv planlar müzakirə edildi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Bununla yanaşı, Numan Kurtulmuşla birlikdə keçirdiyimiz mətbuat konfransında partiyalarımız arasında əməkdaşlığın hazırkı səviyyəsi və perspektiv inkişafı ilə əlaqədar mühüm məqamlara toxunduq. Digər tərəfdən, partiyalarımızın gənclər təşkilatları arasında görüşlərin keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması münasibətlərimizə dinamizm gətirən mühüm amillərdəndir. Bütövlükdə, bu təmaslar, tədbirlər bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyənin mənəvi-siyasi birliyinin güclənməsinə öz töhfəsini verir.

Digər dost ölkələrin hakim partiyaları ilə əlaqələrimiz də uğurla davam etdirilir. Bu baxımdan, vaxtaşırı səfərlərin həyata keçirilməsi və görüşlərin təşkili mühüm əhəmiyyətə malikdir. Qeyd edim ki, ötən il YAP nümayəndə heyəti olaraq Ukraynaya səfərimiz çərçivəsində faydalı və məhsuldar görüşlər, təmaslar baş tutdu. Ukrayna Ali Radasının spikeri Ruslan Stefançukun rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin Ukrayna Ticarət və Sənaye Palatasının prezidenti Gennadi Çijikov ilə görüşümüz zamanı iki ölkə arasında əməkdaşlığın inkişafından bəhs etdik, geniş müzakirələr apardıq. Bununla yanaşı, səfər çərçivəsində iki hakim partiya - YAP və "Xalqın Xidmətçisi" partiyası arasında əməkdaşlıq memorandumu imzalandı ki, bu da münasibətlərimizin əhatə dairəsinin genişlənməsi - yeni işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi üçün əlamətdardır.

Ötən il Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin genişlənməsinə xidmət edən mühüm amillərdən biri də partiyamızın nümayəndə heyətinin Qazaxıstana səfəri oldu. Səfər zamanı paytaxt Nur-Sultanda təşkil edilən "Qazaxıstan siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" adlı Beynəlxalq Forumda YAP nümayəndə heyətinin rəhbəri kimi iştirak etdim. Tədbirdə seçki sistemləri, müasir seçki meyilləri, ənənəvi və alternativ ideologiyaların perspektivləri ilə bağlı müzakirələr aparıldı. Zənnimcə, forum siyasi partiyalar arasında münasibətlərin inkişafına, fikir mübadiləsinə və bu sahədə zəngin təcrübənin fomalaşmasına mühüm töhfə oldu. Səfər çərçivəsində nümayəndə heyətimiz Qazaxıstanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirə qatıldı.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının münasibətləri də uğurla davam edir. Ötən ilin iyul ayında Çin Kommunist Partiyasının təşkilatçılığı ilə Dünya Siyasi Partiyalarının "Xalqın xoşbəxtliyi naminə: siyasi partiyaların məsuliyyəti" mövzusunda videokonfrans formatında keçirilən sammitdə Yeni Azərbaycan Partiyası da təmsil olundu. 2021-ci il oktyabr ayının 29-da Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, nazir Çyan Xunşan ilə videoformatda görüşümüzdə əlaqələrin intensivləşdirilməsi və digər bir sıra məsələlərlə əlaqədar zəruri müzakirələr apardıq. Əminliklə ifadə edildi ki, partiyalar arasında münasibətlər öz növbəsində dövlətlərimizin əlaqələrinin daha da güclənməsinə müsbət təsir edir. Noyabrın 19-da isə 19-cu çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin 6-cı plenar iclasının yekunlarına dair onlayn formatda keçirilən brifinqdə 40 nəfərə yaxın YAP üzvü iştirak etdi. "Pekin 2022" Qış Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək məqsədilə Çində işgüzar səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədovun Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin Xarici Əlaqələr Şöbəsinin müdiri, nazir Sun Tao ilə görüşündə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişaf edirilməsi məsələləri müzakirə olunmuşdur. Bu da, öz növbəsində, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa verilən önəmin daha bir bariz nümunəsidir.

Səfərlər və görüşlər zamanı partiyalararası əməkdaşlıq məsələlərinin müzakirə olunması ilə yanaşı, Azərbaycan həqiqətlərinin, xüsusilə də postmüharibə reallıqlarının diqqətə çatdırılması da, zənnimcə, əhəmiyyətlidir. Çünki qeyd etdiyim kimi, yeni mərhələdə qarşımızda duran əsas vəzifə Qarabağ Zəfərinin diplomatik və informasiya müstəvisində möhkəmləndirilməsi, dost və tərəfdaşlarımızın sayının artırılması, Azərbaycana dəstəyin gücləndirilməsidir. Düşünürəm ki, YAP-ın xarici əlaqələrinin genişləndirilməsi də bu prosesə mühüm töhfədir.

*- Son olaraq cari il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü olacaq. YAP-ın keçdiyi inkişaf yolu və yubileylə əlaqədar keçiriləcək tədbirlər barədə fikirlərinizi bilmək istərdik...*

- Əvvəla qeyd edim ki, 30 il bir ölkə və siyasi partiya üçün nə az, nə çoxdur. Bəzi ölkələr bu müddət ərzində zəngin və şərəfli inkişaf yolu keçirlər, bir qismi isə tənəzzül, xaos və anarxiya ilə üzləşirlər. Bu barədə dünyada, o cümlədən regionumuzda və postsovet məkanında kifayət qədər nümunə var. Burada əsas amil güclü və qətiyyətli lider faktoru, həmçinin xalq-iqtidar birliyi, milli həmrəylikdir. Bu baxımdan, Azərbaycan xalqı xoşbəxt və şanslıdır. Çünki xalqımız istər XX əsrin sonlarında, istərsə də XXI əsrin əvvəllərində öz müdrik liderləri Heydər Əliyevin və İlham Əliyevin dövlətçilik ənənələrinə, milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan siyasəti nəticəsində Azərbaycanın tərəqqisinin, müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasının, ölkəmizin strateji zirvələr fəth edərək dünya miqyasında söz və nüfuz sahibinə çevrilməsinin sonsuz iftixarını yaşamışdır. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyəti müstəsna əhəmiyyətə malik olan və haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən hesab edilən hadisələrdəndir. Bu, çoxəsrlik dövlətçilik tariximizin Heydər Əliyev erasının çox mühüm səhifələrindən biri, yeni Azərbaycanın müstəqil dövlət kimi dinamik inkişaf yoluna qədəm qoymasının başlanğıcıdır.

Biz haqlı olaraq YAP-ın yaradılmasının 30-cu ildönümünü qürurla, iftixarla qarşılayır və qeyd edirik. Çünki Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP ötən 30 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmişdir. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi və Azərbaycana qalib dövlət imici qazandırması da bu reallığın təsdiqidir. YAP qalib xalqımızın Zəfər partiyasıdır.

Ona görə də partiyamızın 30 illik şərəfli və zəngin siyasi inkişaf yolunun öyrənilməsi, təbliğ edilməsi məqsədilə işlərin görülməsi - tədbirlər keçirilməsi olduqca əhəmiyyətlidir. Bu, həm müasir müstəqil Azərbaycanın siyasi tərəqqi tarixinin, siyasi sistemin inkişaf qanunauyğunluqlarının, həm də mənəvi - ümumxalq sərvətimiz olan Heydər Əliyev irsinin, Prezident İlham Əliyevin alternativsiz siyasətinin əsaslarının dərindən öyrənilməsi baxımından vacibdir.

Diqqətə çatdırım ki, Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlanır. Yubiley ili çərçivəsində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Sözsüz ki, Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxsaylı nailiyyətlərə imza atan Yeni Azərbaycan Partiyası yeni mərhələdə - bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə, şərəflə yerinə yetirməklə milli tərəqqiyə mühüm töhfələr verəcəkdir. Çünki YAP, Ümummilli Liderimizin dediyi kimi, dünənin, bu günün və sabahın partiyasıdır. Dünən Azərbaycan xalqının, dövlətinin ictimai-siyasi məsuliyyətini öz üzərinə götürən Ümummilli Liderin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən YAP sabah da taleyüklü məsələlərin həllində və tarixi məsuliyyət anlarında öz sözünü deyəcək - ümumxalq partiyası olduğunu hər zaman təsdiqləyəcək!

***Müsahibəni apardı:***
***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***



# Məmnunluğun ASAN yolu

**Tovuz "ASAN Həyat" kompleksi respublikamızın qərb bölgəsində yaşayan vətəndaşların müraciət etdikləri əsas ünvandır**

Bu gün Tovuz "ASAN Həyat" kompleksinin açılışından 2 il ötür. Prezident İlham Əliyevin iştirakı ilə 2020-ci il martın 4-də açılışı olan kompleks indi respublikamızın qərb bölgəsində yaşayan vətəndaşların üz tutduğu əsas ünvanlardan biridir. Fəaliyyət göstərdiyi ötən müddət ərzində Tovuz "ASAN Həyat" kompleksində 525 minə yaxın vətəndaş müraciətinin qeydə alınması da bunu təsdiq edir.

## 51 milyona yaxın müraciət

Azərbaycanda həyata keçirilən islahatların əsas istiqamətlərindən biri də hökumət-vətəndaş münasibətlərində daha çevik mexanizmlərin tətbiqidir.

Son dövrdə bu istiqamətdə mühüm tədbirlər həyata keçirilib, xüsusən əhaliyə xidmət sahəsində şəffaflıq və operativlik təmin olunub. Vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsini, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsini təmin edən əsas addım isə Azərbaycanın milli brendi sayılan "ASAN xidmət" mərkəzlərinin yaradılmasıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri dövlət başçısının 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə yaradılıb. Fərmanda qeyd olunduğu kimi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, insanlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, elektron xidmətlərə keçidin sürətləndirilməsi məqsədi ilə "ASAN xidmət" mərkəzləri yaradıldı.

"ASAN xidmət" mərkəzləri fəaliyyətə başladığı gündən qısa müddət ərzində əhalinin böyük rəğbətini qazanıb, vətəndaş məmnunluğuna yol açıb. İlk mərkəzin istifadəyə verildiyi 2012-ci il dekabrın 29-dan bu günədək 22 "ASAN xidmət" mərkəzi yaradılıb. Onlardan 6-sı Bakıda, 2-si Gəncədə, digərləri Sumqayıt, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Bu mərkəzlərdə 2013-cü ildən indiyədək 50 milyona yaxın müraciət qeydə alınıb. Müraciət edən vətəndaşların sayı isə 7,8 milyon nəfərdir.

## Müxtəlif xidmət sahələrini özündə birləşdirən kompleks

Tovuz "ASAN Həyat" kompleksinin ərazisində "ASAN xidmət" mərkəzi,

















ASAN radio, ABAD mərkəzi, "ABAD Factory" bitkilərin emalı və qurudulması fabriki, Kinoklub, "ABAD məktəb" təlim mərkəzi, Hərbi Vətənpərvərlik Mərkəzi, "ASAN Kafe" fəaliyyət göstərir.

Buradakı "ASAN xidmət" mərkəzi 2020-ci il mayın 4-də fəaliyyətə başlayıb. Mərkəz Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 737 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir. Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 300-dən çox xidmət həyata keçirilir.

Tovuz "ABAD Factory" bitkilərin emalı və qurudulması fabrikində sifariş əsasında 31 çeşid çay məhsulunun istehsalı həyata keçirilir ki, həmin məhsulların da 10 çeşidi hazırda ABAD vasitəsilə pərakəndə satışa çıxarılır. Çayla yanaşı, sözügedən müəssisədə yerli meyvə qurusu məhsulları da istehsal edilir və onların topdansatışı həyata keçirilir.

Tovuz "ABAD məktəb"ində hazırda tibb sahəsinin nəzəri hissəsini özündə ehtiva edən kurslar keçirilir. Eyni zamanda dərzilik, İT və digər peşələr üzrə təlimlərin təşkili üçün şərait mövcuddur.

Vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş "ASAN Kafe"nin tutumu 64 nəfərdir. Bundan başqa, kafedə müxtəlif oyun avadanlıqları olan uşaq əyləncə guşəsi də var.

Hərbi Vətənpərvərlik Mərkəzində gənclər hərb tariximiz, ordu quruculuğu barədə geniş məlumatlar almaqla yanaşı, ibtidai hərbi hazırlıq təlimlərində iştirak edirlər. Mərkəzin "ASAN xidmət"də yerləşməsi isə yeniyetmələrin və gənclərin günün istənilən vaxtı rahat və maneəsiz buraya gəlmələrinə əlverişli imkan yaradır. Kompleksdə fəaliyyət göstərən Kinoklubda hərəsinin 63 nəfər tutumu olan 2 ədəd kinozal var.

Tovuz "Asan Həyat" Kompleksinin həyətində vətəndaşların asudə vaxtlarını xoş keçirmələri üçün park salınmışdır. Parkın ərazisində fəvvarə, uşaq əyləncə guşəsi, konsert meydançası və açıq havada 24 yerlik kafe var.

## Azərbaycan vətəndaş məmnuniyyəti yüksək təmin olunan dövlətlər sırasındadır

Tovuz "ASAN xidmət" mərkəzində vətəndaşlarla söhbət etdik. Onlardan Məhluqə Aslanova şəxsiyyət vəsiqəsi üçün müraciət etmişdi. "İki ildir fəaliyyətə başlasa da, müraciətim ilk dəfə deyil. Hər dəfə gələndə burada gülərüz kollektiv və yüksək xidmətlə qarşılaşmışam. Bir dəfə də olmayıb ki, nəyə görəsə əsəbləşim. Ona görə belə bir xidmət mərkəzinin yaradılmasına və vətəndaşlara göstərilən yüksək xidmətə görə birinci növbədə dövlətimizin başçısına minnətdarıq", - deyə M.Aslanova bildirdi.

İmran Həsənov isə Tovuzun Aşağı Quşçu kəndindəndir. O da bir neçə dəfə "ASAN xidmət"ə müraciət edib. Onun sözlərinə görə, indiyə kimi daşınmaz əmlak, şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə bağlı müraciət edib və hər dəfə yüksək xidmətin şahidi olub. Hər dəfə gələndə əməkdaşlardan mehriban münasibət görüb, müraciətləri tam təmin olunub.

"ASAN xidmət" deyəndə ilk növbədə göz önünə gələn həm də könüllülük fəaliyyətidir. Ötən 9 ildə "ASAN xidmət" mərkəzləri respublikamızda könüllülük hərəkatının inkişafına böyük töhfələr verib. Minlərlə gəncin uğurlu karyerası məhz bu mərkəzlərdən başlayıb.

"ASAN xidmət" mərkəzlərində könüllülər üçün hər cür iş şəraiti yaradılıb. Mərkəzə gələnlərin qarşılanmasını, müvafiq xidmətlərlə bağlı yönləndirilməsini və digər vəzifələri məhz könüllülər yerinə yetirirlər. Onlardan Şirəli Məmmədov Şəmkirin Düyərli kəndinin sakinidir. Deyir ki, könüllülük ictimai həyata atılan ilk addımdır və burada əldə etdiyi təcrübə gələcək karyerasının ilk uğurlu addımıdır.

Yasəmən Yusifova isə fevral ayından "ASAN xidmət" mərkəzində fəaliyyət göstərir. Onun sözlərinə görə, bu qısa dövrdə kollektiv ona çox doğmalaşıb. İşi vətəndaşları məlumatlandırmaq, onların məmnuniyyət səviyyəsini öyrənmək və ərizələrin doldurulmasında kömək etməkdir. "Burada könüllü kimi fəaliyyət göstərmək olduqca xoşdur. Həm də "ASAN xidmət" mərkəzi bizim iş təcrübəmizin artırılması və bacarıqlarımızın inkişafı istiqamətində təlimlər təşkil edir", -deyə Y.Yusifova bildirir.

Tovuz "ASAN Həyat" kompleksi iki ildir ki, vətəndaşların xidmətindədir. Bu müddətdə Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarının sakinlərinin dövlət orqanlarına müraciətlərində yeni keyfiyyət dəyişiklikləri baş verib. Burada şahidi olduqlarımız həm də ondan xəbər verir ki, Azərbaycan vətəndaş məmnuniyyəti yüksək səviyyədə təmin olunan dövlətlər sırasındadır. "ASAN xidmət" Azərbaycanı dünyaya tanıdan nümunəvi milli modeldir.

***Rəşad CƏFƏRLİ, Elçin CƏFƏROV, "Azərbaycan"***

# Gəmilər səfərə çıxır...

**İqtisadi inkişafa dəniz nəqliyyatının da öz dəstəyi var**




Hər gün dünyanın dəniz və okeanlarında suları yararaq, bəzən də şaxə qalxan coşqun dalğalara "sinə gərərək" yüzlərlə gəmi üzür. Onlar neft, ərzaq, tikinti materialları, avadanlıq, bir sözlə, ən müxtəlif yüklər daşıyır. Nəqliyyatın bu növündən istifadə edən sərnişinlər də az deyil.

Dövlət Statistika Komitəsinin məlumatına görə, dəniz nəqliyyatı ilə bu ilin yanvar ayında daşınmış yüklərin həcmi 445,6 min ton təşkil edib və əvvəlki ilin eyni ayına nisbətən 1,7 faiz artıb. Yüklərin 42,7 faizi neft yükləri olub.

Dəniz limanları tərəfindən 802,1 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib və yüklərin 759,9 min tonunu, yəni 94,7 faizini tranzit yükləri təşkil edib. Həmin dövrdə bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 0,9 min nəfər olub.

Azərbaycan gəmiləri Xəzərdə, eləcə də dünya sularında üzərək ölkəmizin iqtisadi inkişafına sanballı töhfə verirlər. Bunlar tankerlər, quru yük, sərnişin daşıyan, dəniz neftçilərinə bir çox işlərdə kömək edən, bir sözlə, ən müxtəlif sahələrdə fəaliyyət göstərən gəmilərdir. Təbii ki, onların həmişə tam saz vəziyyətdə olması olduqca vacib məsələdir. Bu məsuliyyətli işdə, yeni gəmilərin daim təhlükəsiz hərəkət etməsində təmirçilərin də böyük zəhmət payı var.

Bu iş "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda (ZGTTZ) və "Bibiheybət" Gəmi Təmiri Zavodunda (BGTZ) yerinə yetirilir. Keçən il ərzində bu müəssisələrdə ümumilikdə 106 müxtəlif tipli gəmi təmir olunub.

Gəmilərdən 40-ı Zığdakı, 66-sı Bibiheybətdəki zavodda təmirdən keçib. ZGTTZ-də təmirə dayanan gəmilərdən 9-u əsaslı, 18-i tərsanə, 13-ü cari təmir edilib. Bunlardan 33-ü ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına, 2-si İstehsalat Xidmətləri İdarəsinə, 3-ü Xəzər Dəniz Neft Donanmasına, 2-si kənar təşkilatlara aid olub.

BGTZ-də təmirə dayanan gəmilərdən isə 18-i əsaslı, 35-i tərsanə, 13-ü cari təmir edilib. Bu üzən vasitələrin 61-i ASCO-nun Xəzər Dəniz Neft Donanmasına, 5-i kənar təşkilatlara aiddir.

Təmir prosesi ASCO-nun yüksəkixtisaslı mütəxəssislərinin iştirakı ilə beynəlxalq konvensiyanın tələblərinə uyğun həyata keçirilib.

Qeyd edək ki, ASCO-nun həm "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu, həm də "Bibiheybət" Gəmi Təmiri Zavodu geniş həcmdə peşəkar gəmi təmiri və dəniz mühəndislik xidmətləri təqdim edir. Zavodların əsas fəaliyyət istiqaməti gəmiləri və texniki avadanlıqları təmir etməkdən, sifarişlər əsasında gəmilər üçün müxtəlif növ ehtiyat hissələri hazırlamaqdan ibarətdir.

Dəniz Nəqliyyatı Donanmasına məxsus "Zəngəzur" tankerinin tərsanə təmiri yaxın vaxtlarda başa çatıb. "Zığ" GTTZ-də aparılan təmir işləri qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib. Qeyd edək ki, "Zəngəzur" uzunluğu 149,9 , eni 17,3 metr, tam yükgötürmə qabiliyyəti 13,8 min ton olan tankerdir.

Təmir zamanı tankerin sualtı və suüstü hissələri, maşın şöbəsindəki mexanizmlər, gəminin baş göyərtəsi təmizlənərək rənglənib. Gəmi üzrə klapanların təmiri və ağac emalı işləri aparılıb. Bundan əlavə, tankerdə gövdə-qaynaq, elektrik-quraşdırma işləri də yerinə yetirilib, həmçinin yeni borular quraşdırılıb.

Təmirdən sonra gəmi dəniz sınaq yoxlamalarından keçib. Yaxın günlərdə tanker Türkmənistandan xam neftin daşınmasına cəlb ediləcək.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda Dəniz Nəqliyyat Donanmasına məxsus "Şah İsmayıl Xətai" tankerinin isə əsaslı təmiri yekunlaşıb. Təmir işləri vaxtında, yüksək səviyyədə başa çatdırılıb. Belə ki, gəminin sualtı və suüstü hissələri, göyərtəsi, maşın şöbəsi təmizlənib və rənglənib. Baş və köməkçi mühərrik, nasoslar, separatorlar və kompressorlar sazlanıb.

Tankerin daxilində yeni borular quraşdırılıb. Gəmidə həmçinin gövdə-qaynaq, elektrik-quraşdırma və avtomatika işləri yerinə yetirilib.

Bunlarla yanaşı, "Şah İsmayıl Xətai"nin heyətinə məxsus yaşayış otaqları, sanitar qovşaqlar və yeməkxanalar yenilənib. Sınaq yoxlanışından uğurla keçən tanker yenidən xam neftin daşınmasına cəlb olunub.

Xatırladaq ki, "Şah İsmayıl Xətai" gəmisi Dəniz Nəqliyyat Donanmasının ən nəhəng tankerlərindən biridir. Onun uzunluğu 149,9, eni 17,3 metr, tam yükgötürmə qabiliyyəti 13,8 min tondur.

Gəmilərə aid digər yeniliklər də çoxdur. Məsələn, SOCAR-ın "Azneft" İB-yə xidmət edən "Qara Qarayev" sərnişin gəmisi Neft Daşlarına ilk səfərlərini həyata keçirib. Gəmi neftçiləri dəniz şəhərinə işə aparacaq, əmək növbəsi sona çatanları isə sahilə gətirəcək.

"Qara Qarayev" gəmisinin sərnişin tutumu 120 nəfərdir. Uzunluğu 57,6, eni 12,5 metr olan gəminin maksimal sürəti 40 dəniz mili təşkil edir. Gəmi sahildən Neft Daşlarına bir saat yarıma çatır.

Bunun neftçilər üçün böyük əhəmiyyəti var. Çünki onların bir hissəsi növbə dəyişən zaman Neft Daşlarına gedib-gələrkən təxminən 5-6 saatlıq uzun bir yol qət edirdilər. Artıq bu kimi çətinliklər arxada qalıb. "Qara Qarayev" gəmisi neftçilərin yolunu rahat və qısamüddətli edəcək.

Yeniliklərdən biri də ASCO ilə "ADY Konteyner" MMC arasında fider daşımalarla bağlı əməkdaşlıq müqaviləsinin imzalanmasıdır.

Müqaviləyə əsasən, ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus "Şair Sabir" quru yük gəmisi ilə Ələt-Türkmənbaşı-Ələt limanları arasında konteyner yükü daşınacaq. Qeyd edək ki, "Şair Sabir" quru yük gəmisi eyni vaxtda 225 ədəd 20 futluq konteyner daşımaq gücünə malikdir.

Gəmilər müxtəlif, yollar yaxın-uzaq, xidmət etdikləri sahələr başqa-başqa, təyinatları, tapşırıqları fərqlidir... Eyni olan isə məqsədləridir. Bu gəmilər bizə - ölkəmizə, iqtisadi inkişafa xidmət edirlər. Yolları uğurlu, səfərləri tufansız-qasırğasız olsun.

***Flora SADIQLI, "Azərbaycan"***

# Biləsuvarda taxıl sahələrinə yemləmə gübrəsi verilir

Yazın gəlişi ilə havaların da nisbətən istiləşməsi hiss olunmaqdadır. Torpaqda hərarət yaranmışdır. Bu isə öz növbəsində əkinlərin, yabanı ot-ocağın inkişafında özünü göstərir. Bir neçə gün öncə gördüyün əraziyə, sahəyə gedərkən tamam başqa mənzərənin şahidi olursan. Təbiət yaşıl xalısını yavaş-yavaş hər yerə sərməyə başlayır. Bir azdan bu xalıya gül-çiçəklərdən rəngbərəng naxışlar vurulacaq.

Əkinçi isə artıq tarlalara çıxmışdır. O, az müddət sonra tel-tel olacaq taxıl sahələrinə mineral gübrə verir. Əkinçilər buna "yemləmə" də deyirlər. Hazırda hər yerdə fermerlər, torpaq mülkiyyətçiləri bu məqsədlə yerli istehsal olan karbamiddən istifadə edirlər. Əvvəlki illər yemləmə zamanı daha çox azot gübrəsinə üstünlük veriblər. Xaricdən, o cümlədən Rusiya Federasiyasından alınıb gətirilən azotun hazırkı qiyməti çox baha olduğundan belə vəziyyət yaranmışdır. Mütəxəssislər deyirlər ki, karbamidin tərkibi azotla müqayisədə mineral maddələrlə daha zəngindir. Sumqayıtda istehsal olunan bu gübrə indi xarici ölkələr tərəfindən də alınır.

Biləsuvar rayonunun təcrübəli torpaq mülkiyyətçiləri də yazın erkən gəlməsini görüb sahələrə çıxmışlar. İndi hər kəs əkinlərə yemləmə gübrəsi verməyə tələsir. Bunun üçün isə heç bir problem yoxdur. Rayona gübrənin gətirilməsi və satışı ilə bir neçə sahibkar məşğuldur. Bu səbəbdən torpaq mülkiyyətçiləri növbəsiz gübrə ala bilirlər.




Fermer Marif Əliyev rayon mərkəzindəki dükandan aldığı gübrəni yük maşınına yüklətdirib yaşadığı Əsgərabad kəndində taxıl əkdiyi sahəyə sürdürür. Arxasına gübrəsəpən aqreqatı quraşdırılmış traktorun sürücüsü burada dayanıb onu gözləyirdi. Vaxt itkisinə yol vermədən maşının arxasını açıb gübrə dolu kisələri aqreqatın bunkerinə boşaldırlar. Traktor hərəkətə gəlib irəlilədikcə aqreqat dənəvari karbamidi sağa-sola səpələməyə başlayır. Özü də birbaşa hərəkət zamanı az yox, 10-12 metr əkin zolağını gübrələyir. Traktorun sahənin o biri başına gedib-qayıtmasını gözləyəndə fermer Marif Əliyevlə söhbət edirik. Öyrənirik ki, 5 hektar əkin sahəsi var. Keçən ilin payızında hamısına arpa əkib: "Çıxış ümumilikdə pis deyil. Görürsünüz, ora bir az dik olduğu üçün yaxşı su içə bilməyib. Ona görə də həmin zolağın inkişafı nisbətən zəifdir. Gübrə səpiləndən sonra bir yaxşı yağış düşsə, bu sahə də boy atıb o birilərinə çatacaq", - deyə M.Əliyev sözünə davam edir: "Bir neçə ildir iqlimdən baş çıxarmaq olmur. Dünyanın bir tərəfini sel-su aparır, digər tərəfində quraqlıq baş alıb gedir. Keçən il bu sahəyə pambıq əkmişdim. Suyun qıtlığı ucbatından yaxşı məhsul götürə bilmədim. Görək indi necə olacaq. Elə bil Allah da bizdən üz döndərib. Bunu da haqq edir. Çünki insanlar yolunu azıblar, dünyanı yenidən bölüşdürmək, onun sərvətlərinə daha çox sahib çıxmaq istəyirlər. Gözləri doymaq bilmir. İş o yerə gəlib çatdı ki, iki qardaş xalq bir-birini qırır. Özümüzü götürək. Məgər öz xoşları ilə ermənilər torpaqlarımızı qaytaracaqdılarmı? Əlbəttə, yox. Sağ olsun, Prezident İlham Əliyev. Fəhmi, siyasəti ilə hər şeyi nəzərə almaqla ordumuzu döyüşə hazırladı. Qardaş Türkiyə də yanımızda oldu. Bir biləsuvarlı kimi sevinirəm, fəxr edirəm ki, Vətən müharibəsində bizim gənclər qəhrəmanlıqla döyüşərək həmyerliləri Mübariz İbrahimovun yolunu davam etdirdilər. Vətən üçün canlarını, qanlarını əsirgəmədilər".

Söhbətə başımız elə qarışır ki, heç bilmirik gübrəsəpən texnika sahənin o biri başına nə vaxt gedib qayıdır. Aqreqatın bunkeri yenidən gübrə ilə doldurulur və traktor hərəkətə başlayır. Biz isə fermer Marif Əliyevə işində uğurlar arzulayıb ondan ayrılırıq.

Qeyd edək ki, cari ilin məhsulu üçün keçən ilin payızında rayonda 34 min hektara taxıl toxumu səpilmişdir ki, bunun da 26 min 105 hektarı arpa və buğdadır. Cari ildə taxılın qiymətində artım olacağını görən torpaq mülkiyyətçiləri və fermerlər aqrotexniki tədbirləri gücləndirirlər. Biləsuvar Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri isə bu işdə onların yanındadırlar.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Lənkəran şəhərinin mikrorayon ərazisində yeni abad həyət salınıb

Əhalinin geniş məskunlaşdığı ərazilərdə quruculuq-abadlıq işlərinin genişləndirilməsi və vətəndaş məmnunluğunun təmin olunması ilə əlaqədar sakinlərin istək və arzularına uyğun yeni sosial layihələrin icrası ilə bağlı qarşıya qoyulmuş vəzifələr Lənkəran ŞİH-in daim diqqət mərkəzindədir.



Bununla bağlı tərtib olunmuş tədbirlər planına uyğun olaraq Lənkəran şəhərində və rayonun ayrı-ayrı yaşayış məskənlərində bu vəzifələrin icrası ilə bağlı konkret əməli işlər görülür. Şəhərdə çoxmərtəbəli yaşayış binalarının həyətləri abadlaşdırılır, istirahət guşələri, uşaq əyləncə meydançaları yaradılır, küçə və səkilərdə, yol kənarlarında təmir-bərpa işləri görülür, yaşıllıq zolaqları genişləndirilir.

Bu günlər Lənkəran şəhərində əhalinin sıx yaşadığı mikrorayon ərazisində çoxmərtəbəli yaşayış binalarının arasındakı həyət başdan-başa yenidən qurularaq sakinlərin istifadəsinə verilib. Həyətdə sakinlərin istirahəti və uşaqların əyləncəsindən ötrü lazımi şərait yaradılıb, oyun meydançası qurulub.

# İgid döyüşçü, şəhid atası

## Qarabağ qazisi Əkbər Rüstəmovun hər səhifəsinə bir ömür sığacaq 75 illik həyat gündəliyi



**◆ Qarabağ söhbətləri**

15 may 2021-ci il... Ağdam şəhəri...
Düz 28 ildən sonra bir ağsaçlı ata Şəhidlər xiyabanında uyuyan övladının görüşünə, illərlə həsrətində olduğu ciyərparasanın boyunu sevməyə gəlib, "oğlum, tələbəm, arxa-dayağım, silahdaşım, məsləkdaşım, Sənanım" deyərək gözlərindən qan-yaş tökə-tökə övladının ruhunu haraylayır. "Gözümün nuru, gəlmişəm, hay ver mənə" deyir, "bilirsənmi, səndən sonra bu həyatda yaşamaq necə çətin, necə ağrılı idi..." söyləyir...
Şəhid atası məzarın yanında yerə çöküb hönkürə-hönkürə oğlunun ruhu ilə dərdləşir, xoş günlərinin də, acı günlərinin də silinməz izlərlə həkk olunduğu ömür kitabını vərəqləyirdi...

### Bizim Əkbər müəllim



O, Qarabağ hadisələrinin başlandığı gündən bəri od-alovun içində olmuş, Vətənin azadlığını, bütövlüyünü qorumaq üçün əldə silah üç oğlu - Sərvan, Sənan, Kənanla birlikdə gecə-gündüz düşmənlə vuruşmuş, özünün təbirincə desək, "həmişə əsgər"dir...

O, Vətən uğrunda övladını qurban vermiş şəhid atasıdır...

O, Ağdam elinin böyükdən-kiçiyə hamının tanıyıb dərin hörmət bəslədiyi müəllimdir...

Qarabağ qazisi, bədən tərbiyəsi və idman işçisi Əkbər Rüstəmovdan danışırıq...

1947-ci ildə Ağdam şəhərində dünyaya göz açıb Əkbər Rüstəmov. O, 8-ci sinfə qədər Ağdam şəhər 3 nömrəli məktəbdə oxuyub, daha sonra təhsilini Bakıda 1 nömrəli peşə məktəbində davam etdirib. 1965-ci ildə Bakı Sənaye Pedaqoji Texnikumunu bitirib, 1967-1969-cu illərdə sovet ordusunda xidmət edib. Sonralar gimnastika və güləşlə məşğul olub, müxtəlif çempionatlarda uğurlu çıxışlar edib. Bir müddət Ağdam şəhər 4 saylı texniki orta peşə məktəbində idman müəllimi işləyib. Əkbər Rüstəmov 1988-ci ildən milli-azadlıq hərəkatına qoşulub. Daha sonra könüllü özünümüdafiə taboruna yazılıb. 845 saylı hərbi hissənin 4-cü bölüyünün komandiri kimi döyüşlərdə iştirak edib.

O, 1993-cü il mart ayının 1-də Ağdam Şəhər İcra Hakimiyyəti başçısının şəhər üzrə nümayəndəsinin müavini təyin olunub. Ancaq 1993-cü ilin 22 iyulunda Bakıda olduğu vaxt Ağdam cəbhəsində yaranan vəziyyətlə əlaqədar oğlanları Sarvan və Kənanla yenidən orduya qayıdan Əkbər Rüstəmov gəncləri səfərbərliyə çağırıb və döyüş bölgəsinə yollanıb. Bundan sonra müxtəlif hissələrdə xidmət edən komandir 4 oktyabr 1995-ci ildə ordudan tərxis olunub. Daha sonra Bakıda müəllim kimi fəaliyyət göstərib.

### Nə ürəkdən sevinə, nə də gülə bilir...



Qarabağda vuruşmuş, o torpaqlarda şəhid vermiş, Ağdamdan illərlə uzaq qalmış və nəhayət, parlaq zəfərimiz sayəsində doğma yurduna qovuşmağın xoşbəxtliyini yaşamış qocaman müəllim Əkbər Rüstəmovla "Qarabağ söhbətləri"ndə görüşmüşük. Doğulub böyüdüyü yurd silinməz izlərlə hafizəsinə həkk olunub Əkbər müəllimin. Ürəyindən qara qanlar kimi axıb o diyarın büllur bulaqları, coşqun çayları... Gecələr yuxusuzluqdan dağı arana qatdığı vaxtlarda dəfələrlə xəyallarında səyahət edib əzəmətli Şahbulağa, Mantara, Qaraman dağlarına... Bir anlıq ona elə gəlir ki, yenə də hər gün işdən çıxandan sonra qarşılaşdığı dostlarla "Dostluq" kinoteatrının arxasında yığışıb Zeynalın çayxanasında deyib-gülür, zarafatlaşır... Sonra Həzi Aslanov küçəsindəki evində oturub "ömür gündəliyi"ni açır və yazmağa başlayır... Nədənsə bu dəfə həyatda sonuncu dəfə ürəkdən sevinib güldüyü o toydan yazmaq istəyir...

...1992-ci ilin mayı, Qarabağda müharibənin ən şiddətli vaxtlarından idi. Komandir Əkbər öyrənir ki, balakənli Rövşən adlı bir əsgərinə döyüşə gəldiyi üçün nişanlısını vermirlər. O zaman komandir bir başqa balakənli oğlanı yollayıb qızı Ağdama qaçırtdırır. Amma Rövşənə bir şey olmasın deyə oğlu Sərvanı da onun yerinə postda qoyur. Sonra Rövşəni də, qızı da ailəsi ilə birgə göndərir ki, gedib Balakəndə mayın 12-də toy etsinlər. Mayın 11-də isə o, Rövşəngil tərəfindən yazılmış bu məzmunlu bir telefonoqram alır: "Əkbər müəllim gəlməsə, toy olmayacaq". Beləcə, komandir Ağdamdan Balakənə toya yola düşür. Öz pulu ilə qoyun alıb qurban kəsir. Səhərə qədər gənclərə toy edirlər. Hətta o zaman o toyda iştirak edənlər sonradan deyirlər ki, hələ indiyə qədər burada belə bir toy olmamışdı...

Əkbər müəllim heç zaman ağlına gətirməzdi ki, o, oğlu qədər sevdiyi döyüşçüsünün toyunda iştirak etdiyi gün doğma oğlu Sənan səngərdən Ağdama onunla sonuncu dəfə görüşməyə gələr... Lakin atasını tapmaz... Cəmi 3 gündən sonra - mayın 15-də isə... Sənanın şəhidlik xəbərini alar, damarında qanı donar. Elə o gündən sonra bir daha nə ürəkdən sevinə, nə də gülə bilər...

### Şəhidlik zirvəsindəki qəhrəman oğul



Əkbər müəllimin ikinci oğlu olub Sənan. O, 11 yanvar 1973-cü ildə Ağdam şəhərində dünyaya göz açıb. Ağdam şəhər 2 saylı orta məktəbi bitirdikdən sonra bir müddət Ağdam Uşaq Gənclər Sambo Məktəbində sambo üzrə məşqçi-müəllim işləyib. Sənan 1989-cu ildə 16 yaşında kişilər arasında sambo üzrə respublika birinciliyində çempion olub, SSRİ idman ustası normasını yerinə yetirib. Eyni zamanda o qardaşı Sərvanla birlikdə məşhur "Qarabağ bülbülləri" ansamblının aparıcı üzvlərindən olub - özü tar, Sarvan isə qarmon ifaçısı kimi. Sənan da 1988-ci ilin fevralında başlayan milli azadlıq hərəkatına qoşularaq gecələr ermənilərlə qonşu kəndlərimizdə keşik çəkib. 1991-ci ilin may ayında həqiqi hərbi xidmətə çağırılan Sənan Qarabağda ermənilərin fəallaşmasından, kəndlərimizə daim quldurcasına hücumlardan narahat olaraq rus ordusunda xidmətdən imtina edərək 60 nəfər əsgərlə Bakıya - Müdafiə Nazirliyinə gəlir və Qarabağda xidmət göstərmək niyyətində olduğunu bildirir. 3 gün ərzində müraciətlərinə cavab ala bilmədikdə Sənan 17 nəfərlə birlikdə Ağdamda - Xaçınstroyda yerləşən Şirin Mirzəyevin batalyonuna gəlir və onun fiziki hazırlığını, qorxmazlığını, cəsarətini nəzərə alaraq kəşfiyyatçı rotasına qəbul edirlər. 1992-ci ilin yanvar ayında erməni silahlı birləşmələrinin güclü hücumu zamanı Sənan xeyli sayda düşmən qüvvəsini məhv edir, ayağından yaralanmasına baxmayaraq özünə ilkin tibbi yardım edir, əməliyyat qurtarana qədər döyüş ərazisindən çıxmır. Xocalı faciəsi zamanı da yarasının tam sağalmasını gözləmədən hərbi hissəyə qayıdır və xidmətini davam etdirir.

O, 1992-ci ilin mart ayında Malıbəyli-Quşçular kəndləri istiqamətindən döyüş dostları ilə birlikdə düşmən qüvvələrinin arxasına keçərək Xankəndidə 4 saylı orta məktəbdə yerləşən hərbi hissədən döyüş üçün mühüm əhəmiyyətli xəritəni götürərək arxaya qayıdır. 1992-ci il aprelin 4-də Şirin Mirzəyev onu III batalyonun (komandir Əkbər Məmmədov) II rotasına komandir təyin edir. Cəsur döyüşçü Daşbaşı istiqamətində, yüksəklikdə yerləşən düşmən postunu susdurmaq əmri alır və bu əmri məharətlə yerinə yetirir, düşmənin iki atəş nöqtəsini susduraraq 7 avtomat, 1 ədəd rabitə aparatını qənimət götürür. Sənan Sırxavənd, Qazançı, Kiçan, Canyataq, Gülyataq döyüşlərində də mərdliklə vuruşub. 15 may 1992-ci ildə düşmən Ağdamın Abdal-Gülablı kəndini ələ keçirir. Şirin Mirzəyev düşmən qüvvələrini kənddən çıxarmaq əmri verir, Sənan öz dəstəsi ilə düşmənə qarşı hücuma keçir. Şiddətli döyüş zamanı havadan döyüşə dəstək verən, Azərbaycan Hərbi Hava Qüvvələrinə aid SU-25 vertolyotu düşmən tərəfindən vurulur. Bu zaman paraşütlə tullanan pilotlar düşmən nəzarətində olan əraziyə enməli olur. Sənan pilota kömək etmək üçün irəli atılır, qeyri-bərabər döyüşdə düşmən qüvvələrini məhv edərək, əsir götürülmüş polkovnik-leytenant Şuvaryovu xilas edir və öz mövqelərinə gətirir. Məlum olur ki, pilotun sənədləri düşməndə qalıb. O, yenə də tərəddüd etmədən geri qayıdır. Düşmənlə üz-üzə gələn igid əsgərimiz bu döyüşdən də qalib kimi ayrılır. Lakin Şuvaryovun sənədlərini götürüb geri qayıdarkən daha iki pilotun əsir aparıldığını görərək onları xilas etmək üçün döyüşə girir, ancaq düşmən qüvvəsi çox olduğundan onları xilas edə bilmir. Bu, 19 yaşlı Sənanın son döyüşü olur və o, qəhrəmancasına şəhidlik zirvəsinə ucalır... 1992-ci ildə şəhidliyindən sonra Sənan Rüstəmova Milli Qəhrəman adının verilməsi üçün sənədləri Müdaifə Nazirliyinə göndərilib.



### Fərəhini də, ruhunu da o torpaqlarda qoyub gəlmişdi...

Bu illər ərzində yaralı ata yalnız otağında şəhid övladına düzəltdiyi guşədə Sənanın şəkli ilə danışanda, onun uzaqlara dikilmiş baxışlarından öpəndə ovunmuş, Ağdamsızlığına birtəhər sinə gərərək yaşamağa çalışmışdı... Amma bu, yaşamaq idimi?! Axı 1993-cü ilin 23 iyulundan sonra bütün sevinci yox olmuş, fərəhini də, ruhunu da ömrünü fəda etdiyi o torpaqlarda, Ağdamda qoyub gəlmişdi...

- Bütün həyatım Ağdamla bağlı olub. Texnikumu bitirdikdən sonra 1972-ci ildə Ağdama təyinat aldım, 1 il istehsalat təlimi ustası işlədim, sonra məni Ağdam şəhər 50 saylı peşə məktəbinin idman rəhbəri təyin etdilər. İşlədiyim dövrlərdə məktəbin idman bazasının dayanmadan inkişaf etdirilməsi yolunda yorulmadan çalışdım. Eyni zamanda Ağdam Uşaq Gənclər İdman Məktəbində sərbəst güləş üzrə məşqçi müəllim işlədim. İşlədiyim dövrlərdə məktəbli idmançılar xeyli qələbələr və uğurlar əldə etdilər. Ovaxtkı ittifaq yarışlarında iştirak edirdilər. İttifaq peşə məktəbləri arasında məhz Ağdam şəhər 50 nömrəli peşə məktəbi birinci yerə çıxaraq qızıl medal əldə etdi və bir neçə il "ən yaxşı kollektiv" medalına layiq görüldü. 1978-ci ildə Donetskdə İdman Akademiyasında 2 aylıq kursu əla qiymətlərlə bitirib diplom aldım. Respublikada futbolun inkişafını qaldırmaq üçün ilk dəfə rayonlarda klublar arasında "Şəfəq" futbol komandası yaratmaq da mənim qismətim oldu, Bu işdə məktəbin direktoru mərhum Fazil Nağıyevin böyük xidməti vardı. Ağdamda Tülkü təpəsi adlandırılan yerdə standart ölçülü stadion yaratdıq. Tələbələrimin üzərində hərtərəfli işləyir, onlara qarşılarına məqsəd qoyub ona çatmağı aşılayırdım. Həmişə tələbələrimə dost, balam kimi yanaşmışam. Elə döyüşlərdə də... Bilirsiniz, öz yetişdirdiyin gənc ömürlərin yarıda qırılmasını görmək bir müəllim üçün o qədər dəhşətlidir ki, o yaşadıqlarını sözlə ifadə edə bilmirsən. Müharibə gənclərimizə həddindən artıq ziyan vurdu. Tələbələr təhsilini yarımçıq qoydu, həyatlarını səngərdə davam etdirdi, təhsillərini başa vura bilmədilər... Böyük bir nəsil məhv oldu...

### Bu millətin qarşısını almaq qeyri-mümkündür

- 1988-ci ildə Qarabağdakı hadisələrə qarşı etirazlara çıxdıq. O zaman biz Ağdamdan Xankəndiyə yürüş edəndə insan seli var idi. Əlində taxta, şlanq olan uşaqlar da bizə qoşulmuşdu. Onları qaytarmaq istədim. Bir uşaq dedi ki, "Əkbər müəllim, bizi qaytarma, biz də öz yaşıdlarımızın cavabını verəcəyik, Qarabağ bizimdir". Kövrəldim və onda dərk etdim ki, bu millətin qarşısını almaq qeyri-mümkündür, sadəcə onları bir amal uğrunda birləşdirmək lazımdır... O zaman gəlib gördük ki, Əsgərana yaxın yolları "Kamaz"larla kəsiblər, rus və erməni silahlıları da orada dayanıb. Biz gəncləri qırğına verməmək üçün geri qayıtdıq...

Qısa müddət sonra hadisələr böyüdü və geniş miqyas aldı, Moskvadan prokurorluq tərəfindən yoxlama başladı. Xankəndiyə yürüş zamanı fotoçəkilişlər də aparmışdılar və mən də kadrlara düşmüşdüm. Prokurorluqdan məni sorğuya çağıranda orada mayor Mıtıçkinlə mübahisə etdim, dedim ki, "bu torpaqlar bizimdir. Azərbaycan elə bir cənnət məkandır ki, burada müxtəlif xalqlar yaşayır və hər bir xalq özünə bir dövlət yaratmaq istəsə, bu ölkənin halı necə olar?! Siz bizi yox, erməniləri sakitləşdirməlisiniz..."

### "O batalyonda olan döyüşçülərin 80 faizi mənim tələbələrimdən ibarət idi"



- Hələ 1988-ci ilin oktyabr ayında ermənilər Xankəndi yaxınlığındakı Dovşanlı kəndinin camaatını oradan çıxardılar. O insanlar gəlib bizim peşə məktəbinin yataqxanasına sığınmışdılar. Uşaqların üzlərində yaralar var idi, erməni vəhşiləri onların üzlərini siqaretlə yandırmışdılar. Həmin il noyabrın 24-də isə Qubadlının Eyvazlı kəndini yerləyeksan etmişdilər. 1989-da hökumət tərəfindən Ağdamda, Qarabağda insanların evlərindən silahlarını yığdılar. O cümlədən toplar var idi, onları yığıb aparıb verdilər ermənilərə. Biz bütün bu hadisələrin içərisində idik və düşündük ki, belə davam edə bilməz, özümüz silahlanmağa başladıq. Müharibənin ilk günündən kimin nəyi vardısa - tir tüfəngi, təklülə, qoşalülə götürüb düşmənin qarşısına çıxırdı. Sonralar avtomat və pülemyotlardan istifadə etməyə başladıq. Və ilk dövrdə bu silahları da öz pulumuzla sovet ordusunun müxtəlif hərbi hissələrindən alası olurduq. Birlikdə döyüşdüyüm oğulların bir çoxu hərbi təlim görməmişdi, əsgərliyə belə getməmişdi. Əvvəlcə Ağdam Mexanikləşdirmə Texnikumunun hərbi müəllimi mayor İsmayıl Şirinov və Ağdam Maarif Şöbəsinin inspektoru mayor Mustafa Əliyevlə birlikdə 50 saylı orta texniki peşə məktəbinin idman meydançasında onlara hərbi təlim keçməli olduq.

1991-ci ildə ilk dəfə Şirin Mirzəyevi dəvət etdik. O, oktyabrın 4-də 50 nömrəli peşə məktəbində 700-dən çox mülki əhalini hərbiyə qeydə aldı. Şirin Mirzəyev özü də briqada komandiri oldu. Demək olar ki, o batalyonda olan döyüşçülərin 80 faizi mənim tələbələrimdən ibarət idi, Sənan da onlarlaydı. 1992-ci il martın 21-də isə Eldar Bağırovun adını daşıyan 845 saylı 790 nəfərlik batalyon yaratdıq, ona Allahverdi Bağırov rəhbərlik edirdi. Bu batalyonda da mənimlə birlikdə digər oğlanlarım Sərvan və Kənan da vuruşurdu... O illərdə bu batalyonla birlikdə çoxlu sayda uğurlu əməliyyatlar da keçirdik, amma o vaxt bizimlə tək ermənilər yox, beynəlxalq terrorçu qruplar da vuruşurdu...



### "Səngər gündəliyi"nə həkk olunan acı günlər

Komandir Əkbər Rüstəmov müharibə meydanında həm düşmənlə çarpışır, həm də imkan tapdıqca mütləq "səngər gündəliyi"ni yazırdı (bu gündəlikdə yazılanlar sonradan kitablara çevrildi, onlardan biri isə ötən il təqdimatı olan "Vətən" kitabı oldu). Xocalı soyqırımının yaşandığı müsibəti Əkbər müəllim ürək ağrısı ilə anbaan gündəliyinə həkk etmişdi. Əkbər müəllim yazırdı ki, o gün erməni-sovet hərbi birləşmələrinin Xocalıya hücum xəbəri Ağdama bir anda yayılmışdı.



Düşmən dinc, silahsız, əliyalın xalqa divan tutmuşdu. Xocalılılara kömək lazım idi. Kimin ayağı yer tuturdusa, Şelliyə - cəbhə xəttinə yollanırdı. Bu vaxt Allahverdi Bağırovun dəstəsi sağdan, Əkbər müəllimin dəstəsi isə soldan hücuma keçərək düşmənin fikrini yayındırır, xocalılıları xilas etmək üçün irəli atılırlar. O zaman düşmən mühasirəsini yararaq güllələrin dolu kimi yağdığı ərazidən yaralı insanları çıxarmağa başlayırlar. Mantar dağının ətəyində dayanan avtobuslar, köməyə gələn xüsusi maşınlar yaralıları və digər insanları Ağdama daşıyırlar. Bu proses bir neçə saat davam edir... Bu sayədə yüzlərlə xocalılı ölümün əlindən alınır...

O müsibətli vaxtda komandir Əkbər ayağından yaralanır və kontuziya alır. 1994-cü il yanvarın 3-də ikinci dəfə kontuziya alır. Amma onu heç bir fiziki yara Xocalı faciəsi zamanı ürəyinə, qüruruna vurulan yara qədər ağrıtmır...

Xocalı qırğınında yaşanan tükürpədici dəhşətlərin şahidi olan Əkbər Rüstəmov elə həmin gün papağını başından götürüb tullayır... Ta ki, Vətən müharibəsində zəfər çaldığımız o boyük gün, Şuşanın azadlıq gününə qədər bir daha başında papaq gəzdirmir...

Əkbər Rüstəmovun dəstəsi düşməndən qisas almaq, Xocalıda əsir düşən insanları xilas etmək üçün cəsarətlə zirehli texnikası, böyük artilleriya qüvvəsi olan düşmənin üzərinə hücuma keçir. Dəqiq məlumatları olur ki, bütün girovları Əsgəranda saxlayırlar. Buna görə də martın 6-da ora böyük miqyaslı hücum planlaşdırırlar. O zaman hamısı - Allahverdi Bağırovun, Fred Asifin dəstəsi Əsgərana girirlər, amma düşmənə kömək gəldiyi üçün artıq gücləri çatmır. Sursatları bitir, yaralıları da çox olduğu üçün bir az geri çəkilməli olurlar...

Buna baxmayaraq, heç bir vaxt döyüşdən əl çəkmirlər. Hətta 1992-ci ilin 12 iyununda yüngül silahlarla 2 saat 40 dəqiqəyə 5 kəndimizi - Aranzəmini, Pircamalı, Naxçivaniki, Ağbulağı, Dəhrazı ermənilərdən azad edərək, düz 84 gün orada mövqe tuturlar.

Əkbər müəllim deyir ki, bu qan-qadanın içərisində 3 oğlu ilə bərabər vuruşurdu, amma bir dəfə də olsun xəyalından keçirməyib ki, övladlarını döyüşdən uzaqlaşdırsın.

"Təkcə Əsgəranda olan döyüş zamanı istər-istəməz anidən beynimdən belə bir fikir keçdi ki, görəsən oğlanlarım Sərvan, Sənan, Kənan hansı tərəfdədirlər, birdən başlarına bir iş gələr... Amma elə o anda bütün tələbələrim gözümün önünə gəldi və özümü qınadım ki, "məgər onlar hamısı sənin balan deyilmi?!", - deyir Əkbər müəllim.

### Dünyam yıxıldı

- 1992-ci il mayın 15-də isə batalyonumuzdakı dəllək Rəşid gəlib mənə dedi ki, "Sənan yaralanıb, məsciddədir, gedək". O, çaşaraq xəstəxana əvəzinə məscid demişdi. Dərhal başa düşdüm ki, vəziyyət nə yerdədir... Elə o an dünyam yıxıldı...

Sonra daha bir ağır zərbə aldım... Ağdamı itirdim. Ötən bu illər ərzində yadıma düşəndə ki, Qarabağın dilbər guşəsi Ağdamın hər qarışı uğrunda gedən qanlı döyüşlərdə iştirak etmişəm, torpağında, daşında sürünməkdən dizlərimin dərisi gedib, lakin məndən asılı olmayan səbəblər üzündən həmin torpaqlar yağıya verilib, ürəyim sinəmdən çıxmaq dərəcəsinə gəlirdi. İllərlə bu sarsıntı içimdə davam etdi. O döyüşlərdə mənimlə vurub-yıxan eloğullarımız bir-bir gəlib keçirdi gözlərimin önündən... Azadlıqsevər şəhid Eldar Bağırov, həkim Nizami Şükürov, Rüstəm Hacıyev, çiyin-çiyinə Xocalı uğrunda döyüşdüyüm Allahverdi Bağırov, Qarın Vahid, Barat Quliyev, Mübariz İbrahimov, Nazim Səfərov, Şahbaz İbrahimov... daha kimlər, kimlər...

Bu cür dözülməz ağrılarla, itkilərlə yaşamaq məgər asan idimi?!

Dözə bilmirdim, Ağdamı görmək üçün səngərə gedirdim, oradan doğulub böyüdüyüm doğma diyara baxırdım... Nəvələrimi də özümlə aparırdım, uzaqdan onlara Ağdamın kəndlərini, özünü göstərirdim, vuruşduğum yerləri nişan verirdim...

### "Bilirdim ki, o torpaqlara üzüağ dönəcəyik"

- Onu da deyim ki, heç zaman ümidimi, inamımı itirməmişdim. Bilirdim ki, gec-tez o diyarı azad edəcəyik, o torpaqlara üzüağ dönəcəyik, əvvəlki toy-büsatı bərpa edəcəyik...

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatından sonra Vətən müharibəsi başlayanda Quzanlıya yola düşdüm. Orada vəziyyəti şəxsən müşahidə etdim və ordumuzun gücünə, qüdrətinə tam arxayın oldum. Dövlət başçısı İlham Əliyevin cəsarəti, qətiyyəti xalqımızda misilsiz mübarizə aparmaq əzmi yaratdı. Azərbaycan Ordusu vahid komandanlıq altında, şücaətlə vuruşur, müasir döyüş taktikası tətbiq edirdi. Düşmən bunu gözləmirdi. Onların fikri ötən əsrin doxsanıncı illərinə getmişdi. Amma ermənilər ordumuzun gücü, qüdrəti qarşısında aciz qaldılar, baş əydilər...

Dövlət başçımız İlham Əliyevin qətiyyəti, əzmi, diplomatik arenadakı möhtəşəm fəaliyyəti Azərbaycana böyük qələbə bəxş etdi. Bu zəfər yüzminlərlə məcburi köçkünü doğma torpağına qovuşdurdu, həsrətimizə son qoydu. Mən də əbədi olaraq doğma Ağdamıma, o torpaqda uyuyan oğlumun ruhuna qovuşdum...



Azadlığından sonra 4 dəfə Ağdamı ziyarətə getmişəm. Açığını deyim ki, Ağdamın ilk girəcəyinə ayaq basanda şok vəziyyətində oldum. Baxmayaraq ki, döyüşlər zamanı da görmüşdüm, bilirdim ki hər yer dağıdılıb, amma bu dərəcədə vəhşilik edildiyini təsəvvürümə gətirmirdim. Ağdam yerləyeksan edilib. Bu gördüklərim Karl Marksın ermənilər haqqında dediyi bir fikri yadıma saldı: "İnsana erməni demək olar, amma erməniyə insan demək olmaz". Doğrudan da, bu fikirlər nə dinləri, nə imanları olan xəstə təfəkkürlü erməni barbarlarının əsl simasını izah edir...

Tezliklə Ağdam yenidən dirçələcək, qurulacaq, öz əzəmətini bərpa edəcək, əvvəlkindən də gözəl olacaq...

Lakin onu da bilirəm ki, bir daha bizim nəslin yaddaşına silinməz izlərlə həkk olunan, 29 ilin əvvəlindəki nə o Ağdam olacaq, nə də o ağdamlılar... Biz yalnız xatirələrimizdə o Ağdama gedə, o ağdamlılarla görüşə biləcəyik...



...Budur, artıq Əkbər müəllim yenidən Ağdamda, Həzi Aslanov küçəsində yerləşən öz evindədir. Məsumə xanımın süzüb gətirdiyi pürrəngi çaydan içə-içə "ömür gündəliyi"nə növbəti qeydini edir... Birdən qulağına həyətdəki armud ağacının altından tar səsi gəlir, Sənandır, "Qarabağ şikəstəsi"ni ifa edir...

Və o, gözlərini yumub ruhən şikəstənin ahənginə qoşulur, sürətlə illərin o üzündə olan xoşbəxt Ağdamlı çağlarına qayıdır...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Viran qalmış yurd yeri - Ağdamın Şıxbabalı kəndindən görüntülər





Ermənilərin Azərbaycan ərazilərini işğal altında saxladıqları dövrdə dağıdaraq yer üzündən sildikləri yaşayış məntəqələrindən biri də Ağdam rayonunun Şıxbabalı kəndidir.

AZƏRTAC-ın bölgə müxbiri Şıxbabalı kəndinə gedərək erməni vandalizmini lentə alıb. Şıxbabalı kəndi Ağdam şəhərindən 4 kilometr cənubda, Ağdam-Füzuli avtomobil yolunun kənarında - dağ ətəyindədir. İşğaldan əvvəl Şıxbabalı kəndində üzümçülük, taxılçılıq, baramaçılıq inkişaf etmişdi. Kənddə orta məktəb, kitabxana, uşaq bağçası, tibb məntəqəsi, klub, şərab zavodu, XIX əsrə aid məscid və XX əsrin əvvəllərində inşa edilmiş hamam var idi. İndi isə burada yalnız bir mənzərənin şahidi olmaq mümkündür - erməni vəhşiliyinin. Talan edilmiş, dağıdılmış, yandırılmış binalar dünyanın heç bir yerində, heç bir müharibəsində görünməmiş vəhşiliyin göstəricisidir. Vaxtilə kənddə mövcud olmuş yaşayış evləri, sosial binalardan əsər-əlamət qalmayıb.

# Əlcəzair portalı Atəşgah məbədindən yazıb

Əlcəzairin "Əl Hərir" portalında Azərbaycanın ən ecazkar tarixi abidələrindən biri olan Atəşgah məbədi haqqında məqalə yerləşdirilib.

AZƏRTAC-a istinadla hazırlanmış məqalədə diqqətə çatdırılıb ki, od həmişə azərbaycanlıların həyatında mühüm rola malik olub və təsadüfi deyil ki, onlar öz ölkəsini "Odlar yurdu" adlandırırlar. Bunun ən bariz nümunəsi isə Atəşgah məbədidir.

Məqalədə ərəbdilli oxuculara Atəşgah məbədi haqqında ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, bu məbəd Azərbaycan ərazisindəki Abşeron yarımadasında, Bakı şəhərindən 30 km aralıda, Suraxanı rayonundakı Suraxanı kəndi yaxınlığında yerləşən, müxtəlif



dövrlərdə zərdüştilər, hinduistlər və siqhlər tərəfindən ibadətgah kimi istifadə edilmiş alov məbədidir. XVII-XVIII əsrlərdə təbii qaz çıxışı olan sönməz alovların yerində inşa edilmiş məbədin adı "Alov evi" və ya "Alov yeri" anlamı verir. Tarixi mənbələrə görə, qədim atəşpərəstlər məbədinin qalıqları üzərində, təbii qazın çıxdığı əbədi məşəlin yerində XVII-XVIII əsrlərdə inşa edilmiş bu məbəd 24 hücrə və mərkəzi səcdəgahdan ibarətdir. Tarixçilərin yazdığına görə, müxtəlif vaxtlarda tikilmiş hücrələr və ibadətgah XVII əsrin sonlarında ümumi hasara alınmışlar. Məbədin ən erkən tikilişi təqribən eramızın 1713-cü ilinə aid edilir.

Məqalənin sonunda qeyd edilib ki, Atəşgah məbədi 1975-ci ildə restavrasiya edilib və yenidən turistlərin ziyarətinə açılıb.

# Yoluxma azalsa da, təhlükə hələ sovuşmayıb

## Yeni reallıq Azərbaycanın pandemiyanın istənilən dalğası ilə mübarizəyə hazır olduğunu təsdiqləyir

*Əvvəli 1-ci səh.*

### Azərbaycanda son vəziyyət

Azərbaycanda "Omikron" aşkarlandığı vaxtdan ölkədə epidemioloji vəziyyətin sabit qalması üçün müvafiq tədbirlər görülüb. Pandemiya ilə mübarizədə virusun təhlükəli variantlarından qorunmağın ən effektli yolunun vaksinasiya olduğunu bəyan edən rəsmi qurumlar əhalini indi gücləndirici (buster) doza ilə peyvəndləməyə təşviq edirlər.

Araşdırmalara görə, "Omikron"a yoluxanlar xəstəliyi yüngül keçirsələr də, yeni variantın yoluxduruculuq qabiliyyətinin yüksək və sürətli olduğu deyilir. Ölkədə mərhələli şəkildə başlanılan vaksinasiya prosesi hazırda sürətlə davam edir. Tibb məntəqələrində sıxlığı aradan qaldırmaq, vaksinasiya prosesini sürətləndirmək, vətəndaşların peyvəndə əlçatanlığını təmin etmək məqsədilə TƏBİB tərəfindən səyyar vaksinasiya briqadaları da işini davam etdirir.

Nazirlər Kabinetinin Operativ Qərargahın qərarına görə, fevral ayının 15-dən qüvvəyə minən yeni qaydalara əsasən, peyvəndlənmənin 3-cü mərhələsi ölkə əhalisi üçün mütləq hesab edilir.

### Pandemiya ilə mübarizədə Azərbaycanın siyasəti uğurludur

COVID-19 virusu yayıldığı vaxtdan Azərbaycanın pandemiya ilə mübarizəyə verdiyi töhfələr Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib. Ölkəmizdəki qabaqlayıcı tədbirlər, vaksinasiya siyasətini dəfələrlə ÜST nümunə kimi göstərib.

Azərbaycan dünyada COVID-19 əleyhinə kütləvi vaksinasiyaya erkən, Cənubi Qafqazda isə ilk başlayan ölkədir. Dövlətimiz pandemiyanın ilk günlərindən etibarən beynəlxalq təşkilatlarla müvafiq əməkdaşlığa başlayıb, həmçinin xəstəlik əleyhinə peyvəndlərin hazırlandığı dövrdə peyvənd istehsal edəcək ölkələrlə danışıqlar aparıb. Respublikamız vaksinlərin ədalətli bölgüsü və peyvəndə əlçatanlığın təmin edilməsi məqsədilə yaradılmış COVAX beynəlxalq təşəbbüsünə ilk qoşulan və dəstək verən dövlətlərdən biridir.




Dünyada vaksinasiya prosesinə başlanıldıqdan sonra peyvəndlərə çıxışla bağlı qeyri-bərabərlik, "peyvənd millətçiliyi" barədə Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında çıxış edən Prezident İlham Əliyev bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini Azərbaycanın ictimai şəkildə pislədiyini qeyd edib. Prezident bildirib ki, davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur.

Ölkəmiz pandemiya dövründə də humanizm prinsiplərinə söykənərək digər ölkələrə dəstəyini əsirgəməyib. Azərbaycan 80-dən çox dövlətə maliyyə və humanitar yardım göstərib, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə göndərib. Azərbaycan tərəfindən 100 min doza "CoronaVac" vaksini Türk Dövlətləri Təşkilatı çərçivəsində Afrika dövlətlərinə ianə edilib. Humanitar yardım kimi 170 min doza "AstraZeneca" vaksini Özbəkistan, Bosniya və Herseqovina, Tacikistan və Qırğızıstana göndərilib.

Alimlərin bəziləri COVID-19-un "Omikron" variantının sonuncu ağır dalğa olduğunu qeyd etsələr də, bəziləri bəşəriyyəti növbəti dalğanın da gözlədiyini bildirirlər. Ümumilikdə isə pandemiyanın nə zaman bitəcəyini proqnozlaşdırmağın çətin olduğu vurğulanır. Azərbaycan isə pandemiyanın başladığı ilk günlərdən etibarən xəstəliyin növbəti dalğaları ilə mübarizəyə də hazırdır. Səhiyyə qurumları bütün əhalini hər bir halda qaydalara - maskadan düzgün istifadəyə, gigiyenanın qorunmasına, sosial məsafəni saxlamağa, ehtiyac olmadığı halda kütləvi yerlərdən uzaqlaşmağa çağırırlar. Pandemiya şəraitində yaşadığımız 2 ildə isə xəstəliyə qarşı hələ də ən təsirli vasitə yalnız vaksinasiyadır.

**Əsmər QARDAŞXANOVA**







# Daha 540 nəfər Azərbaycan vətəndaşının Rusiyadan quru yolu ilə ölkəmizə keçidi təmin olunub

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə üzrə vətəndaşların quru sərhəd keçidinə tətbiq edilən müvəqqəti məhdudiyyətlər səbəbindən Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin Dağıstan Respublikası ərazisindən quru yolu ilə Azərbaycana gəlmək üçün toplaşan vətəndaşlarımız və onların ailə üzvləri üçün Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq tapşırığına və pandemiya şərtlərinə uyğun olaraq fevralın 23-dən 28-dək növbəti sərhəd buraxılışları təşkil edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, sərhəd buraxılışlarının həyata keçirilməsi üçün Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarından ibarət işçi heyət Rusiya Federasiyasının Dağıstan Respublikasına ezam olunub. İşçi heyətin üzvləri sərhədi keçmək istəyən Azərbaycan Respublikası vətəndaşları və onların ailə üzvlərini qeydiyyata alıb, onlara zəruri konsulluq yardımını göstərib.

Rusiyanın yerli qurumları ilə əlaqələndirilmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyənləşdirilmiş gündəlik kvotaya uyğun olaraq, qeydiyyata alınmış 540 nəfərin fevralın 23-dən 28-dək (6 sərhəd buraxılışı) Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının "Yaraq Qazmalar - Samur" dövlət sərhəd-keçid buraxılış məntəqəsindən Azərbaycan Respublikasına qrup halında keçidi təmin edilib.

# Minifutbol meydançaları təmirdən sonra istifadəyə verilib



Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkilatçılığı ilə Gəncədə minifutbol meydançaları əsaslı təmirdən sonra istifadəyə verilmişdir.

Təmirdən sonra istifadəyə verilən futbol meydançalarının açılışında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin kollektivi, idmançılar, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Şəhər rəhbərliyi və qonaqlar əvvəlcə Yeni Gəncə yaşayış massivində yerləşən meydançaya baxış keçirmiş, sonra Zülfü Hacıyev küçəsindəki meydançada olmuşlar. Açılış mərasimlərində bildirilmişdir ki, hər iki minifutbol meydançasına süni ot örtüyü salınmış, ətrafına dəmirdən hasar çəkilmiş, idmançıların rahat məşq etmələri üçün hər cür şərait yaradılmışdır. Yaxın vaxtlarda hər iki meydançada soyunub-geyinmə otaqlarının inşası da nəzərdə tutulur.

Elxan Məmmədov hər iki meydançanın rəmzi açarlarını Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova təqdim etmişdir. Niyazi Bayramov çıxış edərək ölkəmizdə idmana göstərilən diqqət və qayğıkeşlikdən danışmışdır.

Sonra tədbir iştirakçıları Gəncə Futbol Akademiyasında görülən işlərlə tanış olmuş, stadiona baxış keçirmişlər.

**S.ƏLİYEV, "Azərbaycan"**

# Bu il əmək və məşğulluq sahəsində rəqəmsallaşma səviyyəsi 80 faizə çatdırılacaq

2022-ci ildə əmək və məşğulluq sahəsində rəqəmsallaşma səviyyəsinin 80 faizə çatdırılması hədəflənib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin 2022-ci il üzrə hədəflərin və icra planlarının müzakirəsi zamanı bildirilib.




Agentliyin Strateji kommunikasiya departamentindən AZƏRTAC-a verilən məlumata görə, hazırda vahid əmək münasibətləri platforması rolunu oynayacaq "Əmək münasibətləri və məşğulluq" altsistemi qurulduğu qeyd edilib. "Məşğul şəxslərin reyestri", "Ölkənin məşğulluq xəritəsi, "BACAR" virtual informasiya resursu, "Sosial tərəfdaşlarla iş və reyestrlər" e-sistemi və s. yaradılması işləri aparılır.

Agentliyin sədri Mustafa Abbasbəyli bu il də aktiv məşğulluq proqramlarının genişləndirilməsinin əsas hədəflərdən olduğunu, o cümlədən peşə hazırlığına cəlb edilənlərin sayının artacağını deyib.

İxtisaslı işçi qüvvəsinin xüsusi çəkisinin artırılmasının, əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsinin əsas fəaliyyət istiqamətləri olduğunu qeyd edib.

Qeyri-formal məşğulluğun qarşısının alınması üçün kompleks tədbirlərin görülməsi, sosial tərəfdaşlarla iş, beynəlxalq təşkilatlarla əlaqələrin gücləndirilməsi, vətəndaşlara göstərilən xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun artırılması, əmək və məşğulluq siyasətinin hədəfyönümlü olmasının təmin edilməsi, hər bir işsizə münasibətdə məşğulluq imkanlarının qiymətləndirilməsi və individual Fərdi Məşğulluq Proqramının tərtib edilməsi və s. hədəflərə doğru görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# Avrozonada inflyasiya maksimum həddə çatıb

## Beynəlxalq ekspertlər 2022-ci ildə bu durumun nəinki davam edəcəyini, hətta sürətlənəcəyini bəyan edirlər

*Əvvəli 1-ci səh.*

Yanvar ayına nisbətən Avrozonada istehlak qiymətlərinin artımı ötən ay 0,9 faiz təşkil edib. "Eurostatın" hesabatında bildirilir ki, ərzaq məhsullarının, tütün məmulatlarının və spirtli içkilərin qiymətləri illik ifadədə 4,1 faiz (yanvarda 3,5 faiz) yüksəlib, sənaye malları 3 faiz (yanvarda 2,1 faiz) bahalaşıb, xidmətlərin dəyəri 2,5 faiz (yanvarda 2,3 faiz) artıb. Enerji daşıyıcıları, qida və alkoqol qiymətləri kimi dəyişkən amilləri nəzərə almadan yanvar ayının 2,3 faizlik templəri ilə müqayisədə fevral ayında inflyasiya 2,7 faiz artıb.

Beləliklə, Avrozonada inflyasiya templəri Avropa Mərkəzi Bankının (AMB) hədəf göstəricisini təxminən üç dəfə üstələyir. AMB iqtisadiyyat üçün optimal səviyyəni 2 faiz hesab edir.

"Capital Economics" kompaniyasının analitikləri önümüzdəki aylarda inflyasiya səviyyəsinin 6 faizə yüksələcəyini, ilin sonuna qədər ehtimal olaraq 4 faizə enəcəyini proqnozlaşdırırlar. Onlar xəbərdarlıq edirlər ki, iri buğda ixracatçısı olan Ukrayna ətrafında yaşanan münaqişə yalnız enerji daşıyıcılarının deyil, həm də ərzaq məhsullarının bahalaşmasına səbəb olacaq.

Ərzaq qiymətlərinin artımı artıq 2021-ci ildə dünyada, o cümlədən Avropada, istər Aİ ölkələri, istərsə də Böyük Britaniya və ya Rusiyada inflyasiyanın qlobal sıçrayışının əsas səbəblərindən biri oldu. Ekspertlər əmindirlər ki, 2022-ci ildə ərzaq inflyasiyası nəinki davam edəcək, hətta sürətlənəcək.

**Rizvan CƏFƏROV, "Azərbaycan"**

# Marionet ölkənin marionet prezidenti

## Ermənistanda ən aşağı reytinqli siyasətçi ölkənin "rəhbər"i seçildi

*Əvvəli 1-ci səh.*

Birinci turda prezident seçilmədikdə, bu turda iştirak etmiş bütün namizədlər ikinci tura keçir. İkinci turda deputatların ümumi səslərinin azı beşdəüçünü (65 deputat) toplayan namizəd prezident seçilir. Bu turda da prezident seçilmirsə, ən çox səs toplamış iki namizəd üçüncü turda yarışır və bu raundda səslərin ən çoxunu qazanan şəxs ölkə prezidenti olur. Eyni şəxs bu vəzifəyə yalnız bir dəfə seçilmək hüququna malikdir. Ermənistanda dövlət başçısı başqa vəzifə tuta, sahibkarlıq fəaliyyəti, maaşlı işlə məşğul ola və səlahiyyət müddəti ərzində heç bir partiyanın üzvü ola bilməz.

Dünən Ermənistan parlamenti iclasının birinci turunda yeni prezidenti seçə bilməyib. Yeganə namizəd Vaaqn Xaçatryan 69 səs toplayıb ki, bu da prezident seçilmək üçün kifayət etməyib. Seçki üçün birinci turda 81 səs lazım idi. Xaçatryanın namizədliyini irəli sürmüş hakim partiya isə 71 səs toplayıb. Müxalifətdəki "Mənim şərəfim var" və "Hayastan" fraksiyaları prezidentliyə namizədliyin müzakirəsini boykot ediblər.

Ancaq parlament ikinci turda Vaaqn Xaçatryanı respublika prezidenti seçib. Onun namizədliyinə 71 deputat səs verib. Bunlar hakim "Mülki müqavilə" fraksiyasının nümayəndələridir.

Yeni prezident 1982-1989-cu illərdə "Razdanmaş" İstehsalat Birliyində işləyib, 1989-1992-ci illərdə "Mars" dövlət müəssisəsinin baş direktorunun müavini postunda çalışıb. 1990-1996-cı illərdə İrəvan Şəhər Şurasının üzvü, 1995-1999 -cu illərdə Ermənistan parlamentinin deputatı olub. 1996-1998-ci illərdə Ermənistan prezidentinin müşaviri postunu tutub. 2000-ci ildə "Armat" Demokratiyanın və Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Mərkəzinin təsisçi üzvü, 2002-ci ildə Siyasi Elmlər, Hüquq və İqtisadi Araşdırmalar Mərkəzinin vitse-prezidenti olub.

Xaçatryan siyasi arenada çəkisi, reytinqi olmayan, tanınmayan, müstəqil mövqe ifadə etməyən bir şəxsdir. Paşinyan ətrafında daha nüfuzlu siyasətçilər olmasına baxmayaraq, bu posta Xaçatryanı təyin etməsi isə onun marionet prezident olacağını açıq şəkildə ifadə edir.

Paşinyanın opponentlərinin "İngilis kraliçası" titulu ilə ödülləndirdiyi 62 yaşlı prezident baş nazirin komandasında az tanınan siyasətçi imicini qazanıb. Prezidentlik mövzusunda müsahibələr verməyə tələsməyib, təvazökar şərhlərlə kifayətlənib. "Yenidənqurma" və post-sovet Ermənistanının ən böyük ictimai-siyasi təşkilatı hesab edilən Erməni Ümummilli Hərəkatının (EÜH) fəallarından olub və daha çox yaşlı nəslə yaxşı tanışdır. Ötən əsrin 90-cı illərinin sonunda keçmiş hərbi xunta güclənəndə EÜH-in bir çox üzvü kimi Xaçatryan da seçim qarşısında qaldı: ya Sarkisyan-Koçaryan koalisiyasının artan nüfuzuna qoşulmalı, ya da Ter-Petrosyanın ardınca təqaüdə çıxıb, bir vaxtlar güclü olan siyasi hərəkatın yavaş-yavaş ölümünü seyr etmək. İkinci yolu seçən Xaçatryan Ter-Petrosyana sadiq qalmaqla diqqət mərkəzində yer almışdı.

V.Xaçatryan Paşinyanın komandasına gəlməzdən əvvəl xarici analitik nəşrlərin daimi həmsöhbəti olub. İrəvan meriyasına rəhbərlik etdiyi dövrdə onun bir xətti var idi - hər şeyə göz yummaq və sakit dayanmaq. Paytaxtın meri olan Xaçatryan nəinki mülkiyyətin dövlətsizləşdirilməsinə mane olmayıb, hətta bəzi yerlərdə buna töhfə verib, xüsusən də oliqarx Xaçatur Sukiasyanın ailəsinə Ermənistan paytaxtının mərkəzində binaların alınmasında kömək edib. Bu gün Xaçatryan Ermənistan siyasətinə təsir göstərə bilmir, çünki o, heç vaxt bu prosesdə iştirak etməyib, yalnız bu və ya digər vəzifədə olub. Onun ermənilərin yaddaşında qalacaq heç bir ciddi təşəbbüsü olmayıb.

Beləliklə, prezident seçkiləri fonunda baş verənlər Ermənistanda ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu aydın göstərir. Bu gərginliyin daxili savaşa yol açacağı da istisna olunmur.

**Elçin CƏFƏROV, "Azərbaycan"**

Təkrar

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs

### *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Səbinə Məmmədova, telefon: (+994 12) 310 07 70 (daxili 4444), **e-mail: smammadova@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində tam avtomat "Roshe" Cobas 6800 avadanlığı üçün PZR test dəstlərinin və onlara uyğun sərfiyyat mallarının satın alınması;

**İştirak haqqı: 500.00 (beş yüz) manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*4) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
*7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;*
*10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;*
*11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*12) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*14) İddiaçının əməkdaşlarının istehsalçı "Roshe" şirkəti tərəfindən verilən Cobas 6800 avadanlığının servis mühəndisliyi üzrə müvafiq tələblərə cavab verən sertifikatları;*
*15) İddiaçının əməkdaşlarının İstehsalçı "Roshe" şirkəti tərəfindən verilən Cobas 6800 avadanlığında istifadə olunan məhsullar üzrə müvafiq tələblərə cavab verən sertifikatları;*
*16) İstehsalçıdan malların təchizetmə məktubu (iddiaçı istehsalçı şirkət olmadığı təqdirdə istehsalçı şirkət tərəfindən malların təchizetmə məktubu təqdim olunmalıdır);*
*17) İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*18) Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*
*19) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05.04.2022-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **13.04.2022-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **14.04.2022-ci il saat 16:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir.

***Tender komissiyası***

Təkrar

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs

### *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Səbinə Məmmədova, telefon: (+994 12) 310 07 70 (daxili 4444), **e-mail: smammadova@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində yarımavtomat PZR test dəstlərinin və onlara uyğun sərfiyyat mallarının satın alınması

İştirak haqqı: 700.00 (yeddi yüz) manat
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*4) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
*7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;*
*10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;*
*11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*12) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*14) İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*15) Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*
*16) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05.04.2022-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **13.04.2022-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **14.04.2022-ci il saat 16:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### müxtəlif mal-materialların satın alınması məqsədilə

### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177

***Tender komissiyası***

## "ASCO Nəqliyyat" MMC

### balansında olan nəqliyyat vasitələri üçün tələb olunan müxtəlif sənaye və sürtkü yağlarının satın alınması məqsədilə

### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***

# Tovuz rayonu istiqamətində mövqelərimiz atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri martın 2-si saat 20:50-dən 21:16-dək dövlət sərhədinin Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Koxanəbi və Əsrik Cırdaxan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


Təkrar

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

### *açıq tender elan edir*

LOT-1. Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və xiyabanlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

**LOT-1 - 2000,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN:1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT- IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanlarından arayış;*
*- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
*- müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
*- mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
*- tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri 06 aprel 2022-ci il saat 12:00-a kimi, tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına 15 aprel 2022-ci il saat 12:00-a qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri 18 aprel 2022-ci il saat 12:00-da Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Cəlilabad Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs "Cəlilabad Müalicə Diaqnostika Mərkəzi" publik hüquqi şəxsin və "Cəlilabad rayon Təsərrüfat hesablı Stomatoloji poliklinikası" hüquqi şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilmişdir.

"Şirvan Şəhər Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs "Şirvan Müalicə Diaqnostika Mərkəzi" publik hüquqi şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "Azərişıq" ASC-nin Mətbuat xidmətinin rəhbəri Vaqif Mustafayevə atası

**AYDIN MUSTAFAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri Firudin Hacıyev və İşlər İdarəsinin kollektivi iş yoldaşları Miryusif Qasımovaya anası

**SƏDAQƏT QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının əməkdaşları Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, dosent Rəcəb Rəhimliyə atası

**ZAKİR RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi

**MİNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zakir Fərəcov və Sumqayıt Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Sumqayıt şəhər prokuroru Müqəddəs Sultanova qardaşı

**ŞAHVƏLƏD SULTANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi sədrin müşaviri Kamil Hüseynova qardaşı

**HÜSEYN HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Fəlsəfə, sosiologiya və politologiya kafedrasının müdiri, dosent Səvvarə Rzaquliyevaya həyat yoldaşı, Metrologiya və standartlaşdırma kafedrasının baş müəllimi

**ƏHMƏDAĞA RZAQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5695**
**Sifariş 616**
**Qiymәti 40 qəpik**